28_27 IYUl-QARA.qxd 8/15/2024 10:02 PM Page 1


# UNİKAL

№29 (2211) 16 avqust 2024-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Ermənistanın sülhdən yayınmaq planı: "Minsk prosesi kartı" işə salınır



Səh.9

## Adil Kərimli sələflərinin yolu ilə gedir

*Bu günlərdə məlum oldu ki, Hesablama Palatası Bakı Mədəniyyət Baş İdarəsində audit yoxlaması aparıb və çoxsaylı nöqsanlar aşkarlayıb. Palatanın hesabatında qeyd edilir ki, 01.01.2022-01.01.2024-cü illəri əhatə edən audit yoxlaması zamanı xüsusilə dövlət satınalmalarında, əmək haqqının hesablanmasında, dərslərin tarifləşdirilməsində ciddi nöqsanlar aşkar edilib. Eyni zamanda məlum olur ki, dövlət büdcəsindən ayrılan vəsaitlərin icrası zamanı bir neçə halda vəsaitin təyinatının dəyişdirilməsi, həmçinin artıq istifadəsi hallarına yol verilib.*

Səh.5

## "Ermənistan ABŞ ilə hərbi əməkdaşlıqdan cəsarətlənə bilər"



*Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a müsahibə verib. O, ABŞ-nin Ermənistana silah daşımasının hansı məqsədlər daşıdığından, İranın İsrailə hücum edəcəyi təqdirdə bunun Cənubi Qafqaza necə təsir edə biləcəyindən, Zəngəzur dəhlizi məsələsinin sülh gündəliyindən çıxarılmasından və onun müzakirəsinin sonrakı...*

Səh.3

## Seçki bülletenlərinin çapına başlanıldı



*Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb."Unikal" "Seçki 2024" Müstəqil Media Mərkəzinə istinadən xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Komissiya üzvləri və Katiblyin təmsilçiləri ilə birlikdə...*

Səh.8

## "Şuşa və Xankəndidə seçkilərə ciddi hazırlıq gedir"



*"Hazırda yeni bir tarixi dövr yaşayırıq. İlk dəfədir ki, Azərbaycanın bütün ərazisində parlament seçkiləri keçiriləcək və xalqımız öz təmsilçilərini seçəcək". "Unikal" xəbər verir ki, bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında əməkdar incəsənət xadimi Baba Vəziroğlu deyib.*

Səh.7

28_27 IYUl-QARA.qxd 8/15/2024 9:23 PM Page 2



# "Afəti bağışlamamışam" - Flora Kərimova



***Xalq artisti Flora Kərimova müğənni Afət Fərmanqızı ilə aralarında olan məhkəmə prosesindən narazı olduğunu bildirib.***

Bu barədə o, özünün sosial media hesabında məlumat yayıb. Sənətçi bu işdə hakim Abbas Rzayevi günahlandırıb. F.Kərimova həmçinin, jurnalist Ülviyyə Alovludan yenidən şikayətçi olduğunu bildirib.

"Abbas Rzayev, sizin hakimlik üslubunuzu artıq millət şərh edir. Əhval-ruhiyyənizdən sezirəm ki, Siz Afətin "mən ad çəkmədim" cümləsindən istifadə edib onu da Ülviyyəsayağı xilas etmək niyyətindəsiz? Görünür, öncəkini cəzasız qoyduğunuzu bu dəfə də təkrarlamaq niyyətindəsiz. Məhkəmə zalında üzünüzə: "məni heç kim axtarmayıb, Binəqədi məhkəməsinə (şəxsən sizi nəzərdə tutaraq) zəng elədim" dedi. "Elə bir şey yoxdur, səni axtarmırlar" deyəndə, "Bandotdel"ə (Mütəşəkkil Cinayətkarlığa Qarşı Mübarizə İdarəsini nəzərdə tutaraq), Baş Polis İdarəsinə zəng elədim, soruşdum, dedilər "sizi axtarmırıq" deyəndə, soruşmadınız ki - "Sən kimsən ki, ölkənin güc strukturlarına belə rahat zəng edib nəsə soruşursan?". Əksinə, siz susdunuz. "Zəng elədim" deməklə sizə nəyi eşitdirib? Sonra sevincək "Mən qalibəm", "Məni heç kim axtarmır" deməklə təkrar üzünüzə durub sizi və Baş Polis İdarəsini yalançı etdiyini də nə səbəbə susmaqla qarşıladınız? Verdiyiniz arxayınlığın davamıdır ki, Ülviyyəyə ikinci cinayət işi Yasamal məhkəməsinə təqdim olunub. Bunu da deyim bilməyənlər də bilsin. Yoxsa, Ülviyyənin cəzasızlığından ilham alan Afət də 2019-cu ildən dayanmadan ünvanıma dediklərindən sonra, 2024-cü ilin martından susaraq "məsumə", "böyük-kiçik dəyəri bilən" rolu oynamağı sizin xilasetmə işinizə yarayacaq?! Beş (5) il dayanmadan, ünvanıma şəhlədiyi nalayiq təhqir və böhtanlarla Afətdəmi cəzasız qalacaq? Abbas Rzayev, əmin olun, "barışdırmaq vəzifə borcumdur" deyib, o pərdə altında "yaxşılıq" niyyətiniz Afətə daha baha başa gələcək. Sizin hakim olaraq ən böyük vəzifə borcunuz zərərçəkmişin - yəni mənim haqlarımı bərpa etməkdir! Bacarırsınızsa, edin. İstəmirsinizsə, bu artıq hamıya aydın sizin hədəfdir. Afətin ünvanıma indən belə ən azı iki məhkəməlik təhqirlərinə də susmayacağam. Haqqımı çeynəyə bilən, yolumdan çəkindirə bilən, insan yoxdur və olmayacaq. Bu dünyanın məhşərini axirətə saxlayan deyiləm, bundan varlığım qədər əmin olun. Ümid edirəm qərarınız and içdiyiniz konstitusiyaya layiq olacaq. Afət Fərmanqızının Binəqədi rayon məhkəməsində son dinləməsi olacaq".

Qeyd edək ki, F.Kərimovanın təhqir və böhtanlardan şikayətinə əsasən, Ü.Alovlu qarşı xüsusi ittiham qaydasında Cinayət Məcəlləsinin 147 və 148 maddələri ilə cinayət işi başlanılmışdı. Sənətçi məhkəmənin onun xeyrinə qərar verdiyini açıqlamışdı. Həmçinin, Flora Kərimova müğənni Afət Fərmanqızının onu təhqir etdiyi üçün Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə ittiham olunmasını tələb edir.

Xəbər verdiyimiz kimi, ötən gün Xalq artisti Flora Kərimovanın müğənni Afət Fərmanqızı barəsində xüsusi ittiham qaydasında verdiyi şikayətlə bağlı məhkəmə iclası keçirilib. Məhkəmədə tərəflər arasında barışığın əldə olunması ilə bağlı məlumat yayılıb. F.Kərimova məsələyə münasibət bildirib. O, çıxan xəbərləri təkzib edib. "Bu xəbərin mənbəyi kimdir? Bağışlayan tərəf mənəmsə, mən bağışlamamışam", deyə, sənətçi paylaşımında yazıb.



## Nazəninin oğurlanan səhifəsi bərpa olundu

***Müğənni Nazənin Salayevanın 1,1 milyonluq instaqram səhifəsi bərpa olunub.***

Bu barədə onun səhifəsində məlumat paylaşılıb.

Qeyd edək ki, bir neçə gün əvvəl Nazəninin oğurlanan səhifəsində qeyri-etik paylaşımlar edilmişdi. Hesabı ələ keçirən şəxs buna 7000 dollar (təxminən 12 min manat) qarşılığında razılaşdığını, lakin öz pulunu ala bilmədiyini bildirmişdi.

## "Mənliyi olmayanlar şəxsiyyətdən danışır" - Müğənni Məhin



***Müğənni Məhin Hümbətova qalmaqallı açıqlaması ilə diqqət çəkib.***

ARB-də yayımlanan "Söhbət var" verilişində qonaq olan sənətçi atmacası ilə maraq yaradıb.

Özündə olmayandan danışan insanlara qıcıq olduğunu deyən Məhin şəxsiyyəti və sənətdən yoxsul insanlara efirdən sərt sözlər ünvanlayıb.

## Lalə onu qınayanların cavabını verdi

***Əməkdar artist Lalə Məmmədova izləyicilərinin suallarını cavablandırıb.***

"Unikal" axşam.az-a istinadən xəbər verir ki, müğənni ona ünvanlanan tənqidlərə münasibətini bildirib.

"Sağlam və əsaslı tənqidlərə açığam. Zatən bu olmasa, doğru inkişaf gedə bilməz. Ancaq həyatı boyu daşı-daş üstünə qoymayan, olduğu yerdən zəhməti, savadı ilə bir yerlərə gəlib çatmayanların səfeh yazılarını görmürəm. Çünki ciddi insan belə işlərə vaxt tapmır. Tapanlar isə göz qabağındadır. Ağızdan, qələmdən çıxan söz sahibindən xəbər verir. Çünki içi boş insanlar nə və nəyə "qadir olduqlarını" bilirlər. Komplekslərini gizlətmək üçün eqo və təkəbbür köməklərinə gəlir. Kimi aldada bilsən də sənəti aldatmaq olmur. Gec-tez pərdələr enəcək və işıqlar yanacaq" deyə, L.Məmmədova yazıb.



28_27 IYUI-QARA.qxd 8/15/2024 9:23 PM Page 3



# Seçki bülletenlərinin çapına başlanıldı



***Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb.***

"Unikal" "Seçki 2024" Müstəqil Media Mərkəzinə istinadən xəbər verir ki, Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov Komissiya üzvləri və Katibliyin təmsilçiləri ilə birlikdə çap prosesinin gedişi və bununla bağlı yaradılmış şəraitlə tanış olub.

MSK sədri seçki bülletenlərinin əsas seçki sənədlərindən biri olduğunu və vətəndaşların öz konstitusion hüquqlarını reallaşdırmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

O diqqətə çatdırıb ki, seçki bülletenləri qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada çap edilib başa çatdırılmalı, bütün proses ərzində Seçki Məcəlləsinin müvafiq müddəalarına dəqiqliklə əməl olunmalıdır.

Sədr M.Pənahov, həmçinin Seçki Məcəlləsinə əsasən seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblərin MSK-nın qərarı ilə müəyyən olunduğunu və Milli Məclisə seçkilərdə 6 516 567 (altı milyon beş yüz on altı min beş yüz altmış yeddi) seçki bülleteni hazırlanacağını bildirib.

Komissiya sədri seçki bülletenlərinin çapı və aidiyyəti üzrə aşağı seçki komissiyalarına paylanılması ilə bağlı zəruri tövsiyələrini də diqqətə çatdırıb.

Proseslə tanışlıqdan sonra MSK sədri Məzahir Pənahov həm seçki bülletenlərinin çapı, həm də ümumiyyətlə Milli Məclisə seçkilərə hazırlıqların gedişi barədə media mənsublarına açıqlama verib, fikirlərini bölüşüb və jurnalistlərin suallarını cavablandırıb. Qeyd etmək lazımdır ki, seçki bülletenlərinin çap prosesi zəruri təhlükəsizliyin təmin edilməsi şərti ilə beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları, media nümayəndələri və seçkilərin iştirakçısı olan bütün maraqlı subyektlər üçün tamamilə açıq həyata keçirilir.

# 1150 nəfərin Azərbaycana girişi məhdudlaşdırılıb

***Ötən ay İnzibati Xətalar Məcəlləsinin və Miqrasiya Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə 1 150 nəfərə ölkə ərazisinə girişin məhdudlaşdırılması qərarı verilib.***

Bu barədə "Unikal"a Dövlət Miqrasiya Xidmətindən (DMX) məlumat verilib.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə ölkə hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla inzibati cərimə tətbiq olunma ilə bağlı 224, Miqrasiya Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozmasına görə əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkəyə girişinə məhdudiyyət qoyulma ilə bağlı 926 qərar qəbul edilib.

Bunlardan 882-si Miqrasiya Məcəlləsinin tələblərini pozmasına görə (Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edilmədən inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilmiş şəxs cəriməni (hesablanmış dəbbə pulu daxil olmaqla) ödəmədikdə), 44-ü Miqrasiya Məcəlləsinin digər maddələrinin tələblərinin pozulmasına görə olub.

# Hərbi helikopterlərimiz havaya qaldırıldı

***Cari ilin hazırlıq planına əsasən, Hərbi Hava Qüvvələrinin (HHQ) helikopter bölmələri ilə təlim-məşq uçuşları keçirilib.***

MN-dən "Unikal"a bildirilib ki, şəxsi heyətə qarşıya qoyulan tapşırıqlar və təhlükəsizlik qaydaları çatdırıldıqdan sonra hərbi pilotların sağlamlıq vəziyyəti yoxlanılıb. Təlim-məşq uçuşlarının planına uyğun olaraq, bazalanma aerodromlarından müəyyən edilmiş marşrutlar üzrə uçuşlar edən helikopterlər gündüz və gecə vaxtı havaya qalxma və yerə enmə, hava kəşfiyyatının aparılması, eləcə də digər fəaliyyətlər üzrə tapşırıqları yerinə yetiriblər. Döyüş hazırlığı və praktiki vərdişlərin daha da artırılması məqsədilə keçirilən təlim-məşq uçuşlarında hərbi pilotlar yüksək peşəkarlıq nümayiş etdiriblər.

# Səfər Mehdiyev "Broker Əbülfəz"lə biznes imperiyası qurur

## Keçmiş komitə sədri ilə qalmaqallı iş adamı ortaqlığa başlayıb - Ortada ilginc iddialar var!

***"Broker" MMC-nin rəhbəri, illərdir adı müxtəlif qalmaqallarda hallanan, dəfələrlə həbs xəbəri yayılan Əbülfəz Məlikov Türkiyədə yeni şirkət qurub. Bu günlərdə "Qaynarinfo"nun yaydığı məlumata görə, Əbülfəz Məlikov Azərbaycandakı bir sıra biznes şirkətlərini də Türkiyənin İstanbul şəhərinə köçürüb. Dəyəri milyonlarla manat olan şirkət qida, turizm, otelçilik və digər sahələrdə fəaliyyət göstərəcək.***

Əbülfəz Məlikovun Bodrumda da bahalı istirahət mərkəzini satın alması ilə bağlı məlumatlar var.

Hazırda Türkiyədə olan Əbülfəz Məlikova bu işdə Dövlət Gömrük Komitəsinin (DGK) topladığı kapitalı müxtəlif şirkətlərin qurulmasına istiqamətləndirdiyi vurğulanır. Onun "Broker Əbülfəz"lə biznes ortaqlığına başlaması isə bu mənada xüsusilə diqqət çəkir. Keçmiş komitə sədri ilə qalmaqallı iş adamının birgə şirkət yaratması onların əvvəllər də gizli və qaranlıq əməkdaşlıq içində olmasından xəbər verir.

Yada salaq ki, "Broker" MMC-nin rəhbəri 2022-ci ildə həbs olunmuşdu. O, Dövlət Gömrük Komitəsinin yüksək vəzifəli şəxsləri barəsində davam edən cinayət işi çərçivəsində saxlanılmışdı. Bildirilirdi ki, Məlikov külli miqdarda dövlət büdcəsinə milyonlarla manat vergi və gömrük ödəmələrindən yayınmaqda və vəzifə saxtakarlıqlarında təqsirləndirilirdi. Bir az da dəqiqləşdirsək, qalmaqallı şirkət rəhbəri Cinayət Məcəlləsinin 209.3 (gömrük ödənişlərinin ödənilməsindən yayınma - xüsusilə külli miqdarda törətdikdə), 213.3 (vergiləri ödəməkdən yayınma, xüsusilə külli miqdarda törədildikdə) və 313 (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunurdu.



Maraqlıdır ki, DGK-nin yüksək vəzifəli şəxsləri ilə bağlı eyni cinayət işi çərçivəsində Səfər Mehdiyevin də məsuliyyətə cəlb olunacağına dair iddialar vardı. Səfər müəllim vəzifəsini də məhz bu cinayət işi səbəbindən itirmişdi.

Lakin "Broker Əbülfəz" 2023-cü ildə ev dustaqlığına buraxıldı, keçmiş komitə sədri isə ümumiyyətlə məlum cinayət işindən kənarda qaldı.

İndi isə nə təsadüfdür ki, onların Türkiyədə birgə şirkət qurduqlarına dair xəbərlər yayılır.

Sabiq komitə sədrinin bütün imkanlarını özünə biznes imperiyası qurmaq üçün səfərbər etdiyinə dair məlumatları təsdiqləyən başqa nüanslar da var. Belə ki, aylar öncə yayılan məlumata əsasən, ötən ilin mayında işdən çıxarılan Dövlət Gömrük Komitəsinin Maliyyə və Təchizat İdarəsinin rəisi, gömrük polkovniki Fuad Əlizadə şirkət rəhbəri təyin edilib. Polkovnik işdən çıxarıldıqdan bir ay sonra "APF Group" MMC-nin qanuni təmsilçisi və direktoru olub.

Nizamnamə kapitalı 50 manat olan şirkətlər qrupunun fəaliyyət sferası hazırda dörd əsas istiqaməti əhatə edir: inşaat, kənd təsərrüfatı, hotelçilik və qida sektoru. Şirkətin baş ofisi isə Naxçıvan şəhərində yerləşir.

Məlumata görə, şirkət Dövlət Gömrük Komitəsinin sabiq sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyevindir. Artıq adıçəkilən MMC-nin bir sıra dövlət qurumları ilə əməkdaşlıq müqavilələri bağladığı da vurğulanırdı.

Maraq üçün bildirək ki, sabiq komitə sədri postunda olduğu dövrlə bağlı korrupsiya ittihamlarına, eləcə də şəxsi biznesi ilə bağlı iddiaları cavabsız buraxıb. Yalnız bir dəfə, vəzifədə ikən mediaya açıqlamasında DGK-də korrupsiya olmadığına zəmanət vermiş, lakin bunun üstündən çox keçməmiş qurumda rüşvət və yeyinti səbəbilə çoxsaylı həbslər start götürmüşdü.

Bəzi iddialara görə, 51 yaşlı Səfər Mehdiyev hələ də yenidən yüksək vəzifə alacağına ümid bəsləyir. Hətta iyunda onun qarşıdan gələn parlament seçkilərində deputatlığa namizəd ola biləcəyi yönündə xəbərlər ortaya atılmışdı. Lakin həmin xəbərlər təsdiqlənmədi. Bununla belə, sabiq komitə sədrinin yüksək vəzifə ümidləri qalır. Onun genişlətməyə başladığı şəxsi biznesini elə məhz bu səbəbdən özünə yaxın şəxslərin, o cümlədən yuxarıda adını çəkdiyimiz F.Əlizadənin adına rəsmiləşdirdiyi deyilir.

sabiq vəzifəli şəxsləri də dəstək verir. Hətta onun şərikləri arasında Dövlət Gömrük Komitəsinin sabiq sədri Səfər Mehdiyevin də olduğu iddia edilir.

Qeyd edək ki, Əbülfəz Məlikovun Rusiyada da biznesi var."Unikal"ın araşdırması nəticəsində isə məlum olub ki, Dövlət Gömrük Komitəsinin sədri postundan kənarlaşdırılmasının ardınca S.Mehdiyev bütün imkanlarını şəxsi biznesinin böyüməsinə yönəldib. Hazırda 51 yaşı olan və 2018-2022-ci illərdə DGK-yə rəhbərlik edən Mehdiyevin xüsusilə həmin 4 ildə sərvətini bir neçə dəfə artırdığı, indi isə vəzifədə

*Sənan Mirzə*

# Ermənistanın sülhdən yayınmaq planı: “Minsk prosesi kartı” işə salınır



***İrəvan Minsk prosesinin davam etdirilməsi məsələsini ilk növbədə sülh müqaviləsinin imzalanması kontekstində nəzərdən keçirə bilər.***

”Unikal” xəbər verir ki, bu barədə Ermənistan XİN açıqlayıb. ”Ermənistan tərəfi Minsk prosesinin davam etdirilməsi məsələsinə münasibətlərin hərtərəfli tənzimlənməsi və ilk növbədə sülh müqaviləsinin bağlanması kontekstində baxa bilər”, - deyə nazirlik yerli KİV-in sorğusuna cavabında bildirib.

Politoloq Elxan Şahinoğlu “Unikal”a açıqlamasında deyib ki, Ermənistan hər zamankı kimi prosesi uzatmaq, fərqli müstəvilərə şəkmək niyyətindədir. Onun sözlərinə görə, Ermənistan Xarici İşlər Nazirliyinin “ATƏT-in Minsk qrupunun məsələsinə sülh müqaviləsinin imzalanması kontekstində baxıla bilər” açıqlamasından bu qənaətə gəlmək olar ki, rəsmi İrəvan “Minsk qrupu” məsələsində israr etmir, sadəcə birtərəfli güzəşt kimi olmasın deyə bu mövzunu danışıqlarda rəsmi Bakı ilə alver predmetinə çevirmək istəyir: “Yəni demək istəyirlər ki, “biz Sizin istəyinizə uyğun olaraq Minsk Qrupundan imtina etsək, bunun qarşılığında Siz də bizim istəklərimizdən birini yerinə yetirməlisiniz”. Ermənistan hökumətinin əsas istəklərindən biri budur ki, Azərbaycan ordusu şərti sərhəddəki strateji yüksəkliklərdən geri çəkilsin. Bu mümkün deyil. Birincisi, sərhədin müəyyənləşməsi prosesi illərlə uzanacaq və bu sülh sazişindən ayrı aparılan danışıqlar prosesidir. İkincisi, Azərbaycan ordusunun nəzarət etdiyi strateji yüksəkliklər “Minsk Qrupundan imtina” bəndi ilə tərəzinin eyni gözünə qoymaq olmaz, birinci dəfələrlə ağır gələcək. Ermənistanın Minsk Qrupundan imtina etməməsinin Azərbaycana böyük zərəri yoxdur, strateji yüksəkliklər isə bizə Ermənistan üzərində böyük üstünlük qazandırıb, bundan imtina mümkün deyil. Ermənistan hökuməti Azərbaycanla sülh sazişi imzalamaq istəyirsə, Konstitusiyasında ölkəmizin ərazi bütövlüyünə iddianı əks etdirən bəndlərdən imtinaya hazırlaşmalıdır. Bizim üçün konseptual məsələ budur”.

Politoloq Turab Rzayev isə Azərbaycanla Ermənistan arasındakı danışıqlar prosesinə fərqli müstəvidə münasibət bildirib. O bakıvaxtı.az-a açıqlamasında deyib ki, hazırkı vəziyyəti nəzərə alsaq, demək olar ki, Azərbaycanla-Ermənistan arasında sülh danışıqları kifayət qədər gərgin keçəcək. Onun sözlərinə görə, hər iki tərəfin fərqli tələbləri, istəkləri var: ”Sülh prosesində irəliləyiş o zaman mümkündür ki, tərəflər qarşılıqlı olaraq kompromisə getsinlər. Orta nöqtə tapmaq lazımdır ki, sülh müzakirələrində nəticə əldə olunsun. Əks halda Azərbaycanın tələbləri ilə Ermənistanın istəkləri fərqlidir. Bəzi məqamlarda ziddiyyətlidir”.

O qeyd edib ki, görünən odur ki, İrəvan hazırda Bakının tələblərini qəbul etmək istəmir. Ermənistanın arzuladığı formada sülh müqaviləsi isə Azərbaycanı qane etmir: “Belə məqamda Zəngəzur dəhlizi, kommunikasiya və digər məsələlərin sonrakı mərhələlərə saxlanması barədə razılıq sülhün şərtlərinin yüngülləşməsinə xidmət edir. İndiki halda dəhliz və kommunikasiya məsələsinə bu qədər çox vaxt və enerji sərf etsək, sülh prosesi həddindən artıq yubana, ləngiyə bilər”.

Analitikin fikrincə, Ermənistan konstitusiyasında dəyişikliklər məsələsini, o cümlədən Zəngəzur dəhlizini sonrakı dönəmə saxlamaq və daha ciddi önəm kəsb edən məsələlərə yönəlmək mümkündür: ”Azərbaycan üçün də heç də az əhəmiyyət kəsb etməyən məsələlərdən biri - sərhədlərin delimitasiya və demarkasiyası prosesinə başlanması, nəticə olması və erməni işğalında olan kəndlərimizin qaytarılması idi. Məncə, bu məsələlər üzərindən sülhə yönəlmək olar. Sülh üçün şanslar var və danışıqlar davam etdiriləcək. Azərbaycan sırf sülh naminə sülh istəmir. Bakı qalıcı və yekun sülhün imzalanmasında maraqlıdır. Təbii ki, həm də maraqlarımızı qoruyan sazişin əldə olunmasına çalışır. Əsas məsələ Ermənistanın kompromisə gedib-getməyəcəyi ilə bağlıdır”.

Müsahibimiz vurğulayıb ki, istənilən halda tərəflər sülhə yaxındır. İrəvan yeni tələbləri gündəmə gətirməsə, başqa əngəllər çıxarmasa, prosesi irəliyə daşımaq ehtimalı var. Əks halda danışıqlar müddəti uzanacaq. “Həmçinin, gələcəkdə tərəflərin kommunikasiya ilə bağlı mövqeləri üst-üstə düşməzsə, sülhdən sonrakı normallaşma prosesinə zərər vura bilər. Bunları da nəzərə almaq lazımdır”, - deyə Turab Rzayev əlavə edib.

***S.Əli***



# Qəzzada atəşkəslə bağlı danışıqlar yenidən başladı

***Qəzza zolağında atəşkəs və girovların azad edilməsi üzrə danışıqların növbəti mərhələsi başlayıb.***

”Unikal” xəbər verir ki, bu barədə Sky News Arabia (SNA) məlumat yayıb. Danışıqlar Qətərin paytaxtı Dohada keçirilir.

***Ağarza Elçinoğlu***

# Aqrar Xidmətlər Agentliyində yeni təyinat

***Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Xidmətlər Agentliyində yeni təyinat olub.***

“Unikal” xəbər verir ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan nümayəndəliyinin Layihə Meneceri Elməddin Namazov AXA sədrinin müavini təyin edilib. O bu vəzifədə keçmiş sədr müavini Eldar Həsənovu əvəzləyib.

Qeyd edək ki, E. Namazov aqrar sahədə 15 ilə yaxın iş təcrübəsinə malikdir. Azərbaycan Dövlət Aqrar Universitetində karyerasına professor köməkçisi, müəllim kimi başlayan Elməddin Namazov, Dünya Bankı, FAO, GİZ kimi beynəlxalq təşkilatların layihələrində kənd təsərrüfatı mütəxəssisi kimi fəaliyyətini davam etdirib. 4 il Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətində (GİZ) Kənd Təsərrüfatı Layihə rəhbəri, 3 il Avropa İttifaqının Azərbaycan ofisində Layihə meneceri və kənd təsərrüfatı üzrə ekspert vəzifələrində çalışıb.

İngilis və rus dillərini bilir.

# "İran hər an İsraila hücum edə bilər" - Ağ Ev

***Amerika administrasiyası hesab edir ki, İran İsrailə mümkün hücum ideyasından əl çəkməyib və bu, hər an baş verə bilər.***

”Unikal” xəbər verir ki, bu barədə Ağ Evin strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi CNN telekanalına bildirib.

”Bizdə olan məlumatlar göstərir ki, İran İsrailə hücum etmək fikrindən əl çəkməyib. Mümkün hücumda “Hizbullah” hərəkatı və Yəmən husilərinin əli ola bilər. Beləliklə, biz onların bir şey edəcəyini güman edirik və bu, yaxın günlərdə, istənilən vaxt baş verə bilər”, - deyə diplomat qeyd edib.

***Ağarza Elçinoğlu***

# Kanalda batan Vətən müharibəsi iştirakçısının meyiti tapıldı

***Sumqayıtda su kanalında batan 26 yaşlı oğlanın meyiti sudan çıxarılıb.***

Bu barədə ”Unikal”a Fövqəladə Hallar Nazirliyindən məlumat verilib. Bildirilib ki, avqustun 9-da Sumqayıt şəhəri, Stansiya Sumqayıt adlanan ərazidə avtomobilin su kanalına düşməsi nəticəsində batmış 1998-ci il təvəllüdlü Əliyev Absət Fəxrəddin oğlunun meyiti Fövqəladə Hallar Nazirliyi Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-xilasedicilər tərəfindən suda tapılıb çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.

Qeyd edək ki, Absuət Əliyev Vətən müharibəsi iştirakçısıdır.

# Prezident anlaşma memorandumunu təsdiqlədi



***"Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında Çin-Avropa Dəmiryolu Ekspresi üçün Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutlarının inkişafı haqqında Anlaşma Memorandum" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Fərmanı imzalayıb.

Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə onun müddəalarının həyata keçirilməsini təmin etmək, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərmək tapşırılıb.

# Muxtar Babayevin müavinlərinin sayı artırıldı



***Ekologiya və təbii sərvətlər nazirinin birinci müavini postu yaradılıb.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Nazirlər Kabinetinə bu Fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Azad edilən ərazilərdə işləmək istəyənlərin nəzərinə!

***Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad olunmuş ərazilərdə nəqliyyat üzrə mütəxəssis, avtoçilingər, vulkanizatorçu vəzifələrində işləmək istəyənlər üçün sənəd qəbulu elan edir.***

ANAMA-dan "Unikal"-a verilən məlumata görə, namizədlərin müvafiq sahədə peşə təhsili olmalıdır.

Maraqlananlar əlaqə telefonu göstərməklə aşağıdakı sənədləri career@anama.gov.az ünvanına göndərməlidir.

- müvafiq vəzifəyə sənədlərin təqdim olunmasına dair ərizə;
- şəxsiyyət vəsiqəsinin surəti;
- təhsilə dair təsdiqedici sənədin surəti;
- əmək kitabçasının surəti (olduğu halda).

Sənəd qəbulu bu il sentyabrın 30-dək həyata keçiriləcək.

Seçim zamanı işğaldan azad olunmuş ərazilərdən məcburi köçkün olan şəxslərin namizədliyinə üstünlük veriləcək.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# "Naxçıvan TV" bu siyahıya əlavə edildi

***Audiovizual yerüstü yayım həyata keçirən dövlət orqanlarının (qurumlarının) Siyahısı genişlənib***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı müvafiq fərman imzalayıb.

Fərmana əsasən, siyahıya aşağıdakı qurumlar əlavə edilib:

- "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti - "Naxçıvan TV" televiziya yayımçısı;
- "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti - "Naxçıvan Radiosu" radio yayımçısı".

# COP29 Radiospektrin idarə edilməsi portalı fəaliyyətə başlayıb

***Bakıda keçiriləcək COP29 (BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası) konfransı üçün COP29 Radiospektrin idarə edilməsi portalı fəaliyyətə başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə COP29-un sosial şəbəkə hesablarında məlumat verilib.




"Dünyanın hər yerindən akkreditə olunmuş iştirakçılar indi bu portal vasitəsilə öz radioelektron avadanlıqlarını qeydiyyatdan keçirə və müvəqqəti radiospektrin ayrılması üçün müraciətlərini təqdim edə bilərlər", - paylaşımda vurğulanıb.

Xatırladaq ki, COP29 noyabrın 11-dən 22-dək Bakı şəhərində keçiriləcək.

# Bakıda 12 mindən çox şagirdin yerdəyişməsi edilib

***Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki ümumi təhsil müəssisələri üzrə 12 185 sorğu şagirdlərin yerdəyişməsi elektron xidməti (sy.edu.az) vasitəsilə tamamlanıb.***

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən "Unikal"a verilən xəbərə görə, proses sy.edu.az sistemi üzərindən həyata keçirilir. Elektron sistem vasitəsilə şagird yerdəyişməsi valideynlərin rahatlığına, prosesin daha şəffaf və operativ həyata keçirilməsinə, əlavə vaxt itkisinin qarşısının alınmasına, ümumi tənzimlənmədə subyektiv amillərin aradan qaldırılmasına imkan verir.

Qeyd edək ki, 2024-2025-ci tədris ili üzrə 2-9 və 11-ci siniflər üçün şagird yerdəyişməsinə avqustun 8-dən start verilib. 10-cu siniflər üçün isə şagird yerdəyişməsi isə 15 avqust saat 15:00-dan aktivləşdirilib.



# Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə əlavə səlahiyyət verildi

***Prezident İlham Əliyev 6 iyun 2024-cü il tarixli fərmanı ilə təsdiqlənmiş "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı dövlət başçısı yeni fərman imzalayıb.

Fərmana əsasən, nazirliyə aşağıdakı yeni səlahiyyətlər verilib:

- tabeliyində olan qurum vasitəsilə yol hərəkətinin və piyada-yol infrastrukturunun təşkilində iştirak etmək, həmçinin aidiyyəti qurumlarla birlikdə nəqliyyat axınının tənzimlənməsini təmin etmək;
- Bakı şəhərinin inzibati ərazisində parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair tələblərə əməl olunmasına nəzarəti təmin etmək;



- yaşayış məntəqələri ərazilərinin və ya ərazi hissələrinin planlaşdırılması çərçivəsində hazırlanan müfəssəl planların layihələrinə insanların və yüklərin daşınması (yaxın məsafələrə daşımaları həyata keçirən ümumi istifadədə olan nəqliyyat vasitələri ilə daşımalar da daxil olmaqla), o cümlədən insanların (piyada və nəqliyyatla) hərəkət çevikliyi ilə bağlı tələblərin təmin olunması baxımından rəy verilməsini təmin etmək;
- avtomobil yollarının, avtovağzalların (avtostansiyaların), yeraltı keçidlərin, metro çıxışlarının, velosiped zolaqlarının inşasına, əsaslı təmirinə, yenidən qurulmasına və bərpasına dair layihələrə yolun buraxıcılıq qabiliyyəti və ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluq göstəriciləri nəzərə alınmaqla rəy verilməsini təmin etmək.

# Azad edilmiş rayonlarda tikinti işlərinə altı ayda xərclənən vəsaitin məbləği açıqlanıb

***2024-cü ilin yanvar-iyun ayları ərzində azad edilmiş rayonlarda tikinti quraşdırma işlərinə 2 milyard 56 milyon 358 min manat vəsait sərf edilib.***

"Unikal" xəbər verir ki, apa-nın Dövlət Statistika Komitəsinin hesabatı əsasında apardığı hesablamalara görə, bu göstəricinin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 22.8% və ya 381 milyon 790 min manat çoxdur. Belə ki, 2023-cü ilin yanvar-iyun ayları ərzində azad edilmiş rayonlarda tikinti quraşdırma işlərinə 1 milyard 674 milyon 568 min manat vəsait yönəldilib.

Qeyd edək ki, bu dövrdə tikinti quraşdırma işlərinə sərf edilən vəsait 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə Xocalıda 649 dəfə, Qubadlı 2.6 dəfə, Ağdamda 2.3 dəfə, Şuşada isə 52% artırılıb.

Xatırladaq ki, hesabat dövründə ən çox vəsait Kəlbəcər (438.5 mln. manat), Ağdam (308.5 mln. manat) və Laçın (242.4 mln. manat) rayonlarına ayrılıb.

| Azad edilmiş rayonlar | 2023-cü ilin I yarısı Min manat | 2024-cü ilin I yarısı Min manat |
|---|---|---|
| Kəlbəcər | 344 611,7 | 438 462,2 |
| Ağdam | 134 678,8 | 308 519,5 |
| Laçın | 328 972,3 | 242 400,4 |
| Şuşa | 154 999,2 | 240 303,7 |
| Füzuli | 314 737,7 | 226 459,3 |
| Zəngilan | 155 769,7 | 202 507,7 |
| Qubadlı | 67 651,6 | 173 711,6 |
| Cəbrayıl | 138 505,2 | 165 735,3 |
| Xocavənd | 34 603,7 | 26 590,8 |
| Xocalı | 38,1 | 24 737,9 |
| Xankəndi | | 6 930 |

28_27 IYUl-QARA.qxd 8/15/2024 9:26 PM Page 6



# "Ermənistan ABŞ ilə hərbi əməkdaşlıqdan cəsarətlənə bilər"

Ədalət Verdiyev: "ABŞ Ermənistan ərazisinə silah daşımaqla tarixi Azərbaycan torpağı olan Qərbi Zəngəzurda hərbi baza yaratmaq istəyir"



"Zəngəzurla bağlı məsələni Azərbaycan növbəti mərhələyə keçirməklə Ermənistanın daha uzun müddət dalanda qalmasını təmin edir"

***Hərbi ekspert Ədalət Verdiyev "Unikal"a müsahibə verib. O, ABŞ-nin Ermənistana silah daşımasının hansı məqsədlər daşıdığından, İranın İsrailə hücum edəcəyi təqdirdə bunun Cənubi Qafqaza necə təsir edə biləcəyindən, Zəngəzur dəhlizi məsələsinin sülh gündəliyindən çıxarılmasından və onun müzakirəsinin sonrakı mərhələyə keçirilməsindən danışıb.***

***-Ədalət müəllim, bu günlərdə əsas diqqət çəkən məsələlərdən biri Ermənistana silah daşıyan ABŞ təyyarələrinin görüntülərinin yayılmasıdır. ABŞ-nin Ermənistana silah daşımaqda məqsədi nədir və bu addım regionda hansısa toqquşmalara səbəb ola bilərmi?***

-ABŞ Ermənistan ərazisinə silah daşımaqla tarixi Azərbaycan torpağı olan Qərbi Zəngəzurda hərbi baza yaratmaq istəyir. Ermənistan ABŞ ilə mövcud olan hərbi və hərbi-texniki sahədə əməkdaşlıqdan kifayət qədər cəsarətlənə bilər. Bundan əvvəl ABŞ-dan alınan silahların Kəlbəcər istiqamətində atəşkəsin pozulmasında istifadə olunmasını nəzərə alsaq, ABŞ-ın Ermənistana hərbi yardımı gec ya tez onların müəyyən təxribatlarına, hətta növbəti hərbi eskalasiyasına gətirib çıxara bilər.

***-Son günlər ən çox müzakirə olunan məsələlərdən biri də İranın İsrailə hücum edəcəyi ilə bağlıdır. Əgər bu hücum baş verərsə, onun bizim regiona hansı təsirləri olacaq?***

-Əslində İran indiyə qədər İsrailə qarşı hücumlar etməli idi. Yeni, verilən bəyanatlarda bunu görmək mümkün idi. Görünən odur ki, ABŞ-ın regiona aviadaşıyıcı zərbə qrupları daxil etməsi və bu ölkədən gələn xəbərdarlıqlar, eyni zamanda İranın İsrailə qarşı zərbələr üçün region ölkələrindən dəstək ala bilməməsi bu zərbələri ləngidir. İranın İsrailə zərbələri qarşılıq taparsa, yəni, Təl-Əviv bu zərbələrə cavab verərsə, o zaman regionda yeni münaqişə ocağının yaranması Azərbaycana mənfi təsir edə bilər. Azərbaycan bütün bu ehtimalları nəzərə alaraq hələlik quru sərhədlərini qapalı saxlayır.

***-Ötən həftə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov Zəngəzur dəhlizi məsələsinin sülh gündəliyi müqaviləsindən çıxarılması barədə fikirlər səsləndirib. Onun sözlərinə görə, hər iki tərəf sözügedən bəndi sülh sazişindən çıxarmaq və onun müzakirəsini sonrakı mərhələyə keçirməklə bağlı razılığa gəlib. Bu qərar Zəngəzurla bağlı məsələyə necə təsir edəcək?***

-Zəngəzurla bağlı məsələni Azərbaycan növbəti mərhələyə keçirməklə Ermənistanın daha uzun müddət dalanda qalmasını təmin edir. Çünki burada söhbət yalnız Zəngəzur məsələsindən deyil, bütün kommunikasiyaların açılmasından gedir. Burada da Ermənistan bir neçə marşrut üzrə kommunikasiyaların açılmasına ümid edə bilərdi. İlk növbədə Zəngəzur dəhlizindən gələn gəlirlər Ermənistanın əlindən çıxır. İkinci növbədə Türkiyə ilə Ermənistan arasındakı sərhəd-keçid məntəqəsi bağlı qalır. Digər tərəfdən İcevanla Qazax rayonunu birləşdirən avtomobil və dəmiryolları da qapalı qalacaq. Bu da Ermənistana daha çox ziyan gətirəcək. Azərbaycanın kommunikasiyaları hər tərəfə açıqdır və biz Zəngəzur dəhlizinə paralel olaraq İran ərazisindən Naxçıvana birləşəcək yolun tikintisinin intensiv şəkildə davam etdiyini görürük.

***Anar Kəlbiyev***

# Azərbaycanda meymunçiçəyinə yoluxma qeydə alınmayıb - Rəsmi

***Olkəmizdə meymunçiçəyi virusuna yoluxma hadisəsi qeydə alınmayıb.***

Bu barədə "Unikal"ın sorğusuna cavab olaraq Səhiyyə Nazirliyindən məlumat verilib. Açıqlamada deyilir ki, ölkədə epidemioloji vəziyyət nəzarət altındadır.




Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Afrika qitəsində yayılan meymunçiçəyi virusuna görə qlobal ictimai sağlamlıq üzrə fövqəladə vəziyyət elan edib. Konqo Demokratik Respublikasında başlayan və sürətlə qonşu ölkələrə yayılan bu yoluxucu xəstəlik ən azı 524 nəfərin ölümünə səbəb olub.

Hazırkı epidemiyanın virusun yeni bir variantı ilə əlaqəli olduğu üçün əvvəlkilərdən daha çox narahatlıq doğurduğu bildirilir. Mütəxəssislər bunun indiyə qədər gördükləri ən təhlükəli variant olduğunu deyir və yayılma sürəti və yüksək ölüm nisbətindən narahatlıqlarını ifadə edirlər.

Qlobal ictimai sağlamlıq üzrə fövqəladə vəziyyət 196 ölkə üçün qanuni olaraq məcburi olan Beynəlxalq Səhiyyə Qaydalarına əsasən ən yüksək xəbərdarlıq səviyyəsidir. Ümumdünya Səhiyyə Təşkilatının direktoru Tedros Adhanom Qebreyesus Afrika qitəsində və ondan kənarda daha da yayılma ehtimalının "çox narahatedici" olduğunu söyləyib.

# AYNA taksilər üçün duracaq yerləri müəyyənləşdirəcək




***Prezident İlham Əliyevin fərmanı ilə "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, fərmana əsasən, Agentliyin fəaliyyət istiqamətləri sırasına yol hərəkətinin və piyada-yol infrastrukturunun təşkilində iştirak etmək və aidiyyəti qurumlarla birlikdə nəqliyyat axınının tənzimlənməsini təmin etmək əlavə edilib.

Eyni zamanda Agentliyin vəzifələri artırılıb və aşağıdakı yeni vəzifələri müəyyən edilib:

- Bakı şəhərinin inzibati ərazisində müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerlərini müəyyənləşdirmək, onları quraşdırmaq və idarə olunmasını təmin etmək;
- taksi minik avtomobilləri üçün nişanlanma xətləri əsasında duracaq yerlərini müəyyənləşdirmək və idarə olunmasını təmin etmək;
- Bakı şəhərinin inzibati ərazisində dövlət avtomobil yollarında parklanma yerlərini müəyyənləşdirmək, onları təşkil və idarə etmək, bələdiyyə və özəl avtomobil yollarında parklanma yerlərinin təşkilində iştirak etmək, habelə parklanma yerlərində nəqliyyat vasitələrinin parklanmasına dair tələblərə əməl olunmasına nəzarət etmək və parklanma qaydalarını pozmuş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi məqsədilə tədbirlər görmək, o cümlədən foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin quraşdırılmasını təmin etmək;
- Bakı şəhərinin inzibati ərazisində nəqliyyat qovşaqlarının (nəqliyyat mübadilə mərkəzlərinin), Agentliyin yeni avtomobil duracaqlarının (qarajlarının), həmçinin mühafizə olunan duracaqlarının yaradılması (layihələndirilməsi, tikilməsi) ilə bağlı tədbirlər görmək və vəziyyətinə nəzarəti həyata keçirmək, habelə öz balansında olan avtomobil duracaqlarını (qarajlarını) və mühafizə olunan duracaqlarını idarə etmək;
- piyada-yol infrastrukturunun təşkilində iştirak etmək;
- yol nişanlarının, nişanlanma xətlərinin və yol hərəkətinin təşkilinin digər texniki vasitələrinin yerlərini Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəyi nəzərə alınmaqla "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə, bu sahədə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş normalara uyğun olaraq müəyyənləşdirmək və ya dəyişdirmək, onların quraşdırılmasına (çəkilməsinə) və lazımi qaydada saxlanılmasına nəzarət etmək;
- avtomobil yollarının normativ hüquqi aktlarla və beynəlxalq standartlarla müəyyən edilmiş norma və tələblər səviyyəsində yol nişanları, nişanlanma xətləri və yol hərəkəti təşkilinin digər texniki vasitələri ilə təchiz edilməsi vəziyyətinin araşdırılması məqsədilə mütəmadi olaraq monitorinqlər həyata keçirmək və yolların zəruri yol hərəkəti təşkilinin texniki vasitələri ilə təchiz edilməsi məqsədilə tədbirlər görmək;
- yaşayış məntəqələri ərazilərinin və ya ərazi hissələrinin planlaşdırılması çərçivəsində hazırlanan müfəssəl planların layihələrinə insanların və yüklərin daşınması (yaxın məsafələrə daşımaları həyata keçirən ümumi istifadədə olan nəqliyyat vasitələri ilə daşımalar da daxil olmaqla), o cümlədən insanların (piyada və nəqliyyatla) hərəkət çevikliyi ilə bağlı tələblərin təmin olunması baxımından rəy vermək;
- avtomobil yollarının, avtovağzalların (avtostansiyaların), yeraltı keçidlərin, metro çıxışlarının, velosiped zolaqlarının inşasına, əsaslı təmirinə, yenidən qurulmasına və bərpasına dair layihələrə yolun buraxıcılıq qabiliyyəti və ərazinin yol-nəqliyyat infrastrukturuna uyğunluq göstəriciləri nəzərə alınmaqla rəy vermək;
- avtomobil yollarında tıxac yaranması səbəblərini araşdırmaq, təhlillər aparmaq və müvafiq təkliflər vermək;
- avtomobil yollarında tıxac yaranmaması və nəqliyyat axınının tənzimlənməsi üçün ticarət, iaşə, sənaye və tikinti obyektlərinə, habelə həmin obyektlərdən yükdaşımaların iş rejiminə dair Nəqliyyatı Əlaqələndirmə Şurasına təkliflər hazırlamaq;";

Həmçinin fərmana əsasən, Öz vəzifələrini yerinə yetirmək üçün Agentliyin yeni hüquqları yaranıb:

- reysdənkənar hallarda saxlanılması üçün müvafiq duracaqları olmayan ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşımaları həyata keçirən nəqliyyat vasitələrinin Agentliyin avtomobil qarajlarında və istehsalat bazalarında müqavilə əsasında ödənişli qaydada saxlanılması üçün şərait yaratmaq;
- ümumi istifadədə olan nəqliyyat vasitələri ilə müntəzəm sərnişindaşımanı təşkil edən və nəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılması, eləcə də onların sürücülərinin reysqabağı tibbi müayinəsi üçün müvafiq şəraiti olmayan hüquqi şəxslərə və ya fərdi sahibkarlara belə yoxlama və müayinələrin Agentlik tərəfindən müqavilə əsasında ödənişli qaydada həyata keçirilməsi üçün şərait yaratmaq;
- sərnişinlərin gediş haqqını ödəməsini asanlaşdırmaq üçün dayanacaq məntəqələrində ödəniş alətlərinin quraşdırılmasını təmin etmək.

# Məhkəmə İTV-ni 3 min manat cərimələdi




***Məhkəmə İTV-ni cərimələyib. Bu barədə "Unikal"a Audiovizual Şuradan məlumat verilib.***

Bildirilib ki, İctimai Televiziya və Radio Yayımları Şirkətinin "İTV" televiziya redaksiyasının (kanalının) efirində 04 may 2024-cü il tarixdə 13.00-13.24 saat aralığında yayımlanmış "1 şəhər və 24 saat" proqramında qanunvericiliyin tələblərinin pozulması faktı aşkarlanmışdır. Həmin proqramın yayımı zamanı aparıcının masa üzərindəki alkoqollu içkinin xüsusiyyətlərini təsvir etməsi və həmin şəhərə gələndə onun içilməsini tövsiyə etməsi faktı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunun 4.2.3-ci maddəsində öz əksini tapmış "uşaqların həyat və təhlükəsizliyinə potensial təhlükə yaradan əməlləri təbliğ edən informasiya" olmaqla uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyaya aiddir. Həmin Qanunun 9.3-cü maddəsinə uyğun olaraq "18+" yaş kateqoriyasına aid informasiya məhsulu televiziya və radio vasitəsilə yayımlanarkən bu informasiya məhsulunun yaş kateqoriyası haqqında xəbərdarlıq televiziya yayımı zamanı işarə, radio yayımı zamanı isə səsləndirmə ilə həyata keçirilir.

"İTV" televiziya redaksiyası proqramın yayımı zamanı qeyd olunan qanunvericilik tələblərinə riayət etməmiş və bununla da, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri pozulmuşdur. Bununla bağlı, Azərbaycan Respublikası Audiovizual Şurası tərəfindən 2 avqust 2024-cü il tarixdə inzibati xəta haqqında protokol tərtib edilmiş və İnzibati Xətalar Məcəlləsinin 43.1-ci maddəsinin tələbləri nəzərə alınaraq müvafiq məhkəməyə göndərilmişdir. 13 avqust 2024-cü il tarixində Yasamal Rayon Məhkəməsində işə baxılmış və məhkəmənin müvafiq qərarı ilə İctimai Televiziya və Radio Yayımları Şirkəti üç manat məbləğində cərimə edilmişdir.

# Şəhidimiz 32 ildən sonra dəfn edildi

***Yarıyev Qənbər Teymur oğlu Birinci Qarabağ müharibəsində könüllü olaraq Vətənin müdafiəsi üçün döyüşlərə qoşulmuşdu. 32 ildən sonra şəxsiyyəti dəqiqləşdirilən Qənbər Yarıyevin nəşinin qalıqları isə doğma yurdu Salyanda torpağa tapşırılıb.***

"Unikal" xəbər verir ki, şəhid Qənbər Yarıyevin nəşi Salyan sakinləri tərəfindən izdihamla qarşılanıb, doğulub boya-başa çatdığı və ailəsinin yaşadığı evə gətirilib.

Şəhidlə vida mərasimi təşkil olunub, cənazə namazı qılınıb, şəhidlərimizin ruhuna dualar oxunub. Mərasimdə şəhidin ailə üzvləri ilə bərabər rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, müharibə iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak edib. Vida mərasimindən sonra şəhidin nəşinin qalıqları dəfn üçün Şəhidlər xiyabanına gətirilib, yaylım atəşinin müşayiəti ilə torpağa tapşırılıb.

Qeyd edək ki, Yarıyev Qənbər Teymur oğlu 1966-cı ildə Salyanda dünyaya göz açıb. Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qoşulub. 1992-ci il yanvarın 26-da Şuşa rayonu Daşaltı kəndi ərazisində gedən döyüşlər zamanı itkin düşüb. Onun nəşinin qalıqları Daşaltı kəndindəki kütləvi məzarlıqda aşkarlanıb.

# Azərbaycandakı "brend mal" saxtakarlığının sensasion pərdəarxası

## Həftənin sualı: məşhur markaların adı altında "qaz vurub qazan dolduranlar" kimlərə arxalanırlar?

***Azərbaycanda əksər alıcılar baha aldıqları geyimlərin əslində keyfiyyətsiz olduğundan şikayətlənirlər. İddialar bu istiqamətdədir ki, yüksək qiymətə brend adı ilə alınan geyimlər əslində ölkə daxilində istehsal olunur. Əgər doğrudan da, belədirsə, bu, istehlakçıların hüquqlarının kobud şəkildə pozulmasıdır və cinayət məsuliyyəti yaradır.***

Qeyd edək ki, 2019-cu ildə məşhur geyim markasının aşağı keyfiyyətli paltarlara "Chanel", "Fendi", "Dolce & Gabbana", "Valentino", "Chiristian Dior" və digər dünyaca məşhur brendlərin saxta etiketləri tikilərək dəyərindən dəfələrlə baha qiymətə müştərilərə təqdim edilməsi Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən ifşa olunmuşdu. Sonrakı illərdə də hüquq-mühafizə orqanları tərəfindən bənzər saxtakarlığa qol qoyanlara qarşı mütəmadi əməliyyatlar keçirilib. Lakin təəssüf ki, bəziləri hələ də bu cür qanunsuz əməllərlə məşğul olmağa davam edirlər.




Maraqlıdır, brend adı altında satılan, üzərində Avropa, yaxud ABŞ markaları adları olan geyimlərin, kosmetik məhsulların, ətirlərin və s. Azərbaycanda istehsal olunması, yaxud Çindən gətirilməsi ilə bağlı iddialar əsaslıdırmı?

Bu yaxınlarda Azad İstehlakçılar Birliyinin rəhbəri Eyyub Hüseynov Bizim.media-ya təsdiqləmişdi ki, brend geyimlərin çoxu doğrudan da Azərbaycanda və Çində istehsal olunur: "Düşünürəm ki, eyni hal ayrı-ayrı sahələr üzrə indi də mövcuddur. Hətta metronun "Sahil" stansiyası yaxınlığında "Birə-bir" adlı mağaza fəaliyyət göstərirdi, içində xaricdən gələn geyimlərlə yanaşı, etiketləri dəyişdirilmiş şəkildə yerli istehsal malları da satılırdı. Bunu ayırd etmək elə də asan deyil".

E.Hüseynov "brend" məsələsinin olduqca düşük və ağılsızlıq olduğunu vurğulayıb: "Çünki "brend" sözü damğa deməkdir. Qədim zamanlarda heyvanları bir-birindən seçmək üçün budlarına damğa vururlurdu. İndi də marketoloqlar "brend" söhbətini insanlara elə yeritməyə çalışırlar. Həqiqətən marka geyimlərin etiketi digərlərindən seçilir. Alıcılar geyim alarkən diqqət etsinlər, əgər etiket əllə tikilibsə, deməli həmin paltar brend deyil. Çox yaxşı olardı ki, aidiyyəti dövlət qurumları bu məsələlərə nəzarət etsinlər. Çox təəssüflər olsun ki, azad bazar iqtisadiyyatında biznes qurumları sui-istifadə edərək insanları aldadırlar".

"Unikal" olaraq xatırladaq ki, Dövlət Gömrük Komitəsi (DGK) "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" qanuna əsaslanaraq gömrük ərazisinə gətirilən pirat və ya kontrafakt malların buraxılışını dayandırmaq hüququna malik olduğunu bəyan etmişdi. Bununla da Çindən və digər ölkələrdən daxil olan, istehlakçılar arasında "brend mallar" kimi tanınan, əslində isə pirat və kontrafakt olan mallara qarşı yumşaq münasibət ifadə olunmuşdu. Çünki sual yaranırdı: aidiyyatı qurumun belə bir hüququ varsa, ondan niyə istifadə etmir? Axı belədə "brend saxtakarlığına" ağır zərbə vurulmuş olardı.

Görünür, bəzi ekspertlər sözügedən məsələdə müəyyən məmurların, eləcə də onların himayəsindəki işbazların ciddi maraqları olduğunu söyləyərkən haqlıdırlar. Məhz bu səbəbdən saxta "brend mallar"ın Azərbaycan bazarlarına ayaq açmasına və alıcıların aldadılmasına göz yumulur.

Hərçənd, problemə fərqli baxış bucağından yanaşanlar da var. Məsələn, gömrük və vergi məsələləri üzrə ekspert Vəli Əliyev aylar öncə valyuta.az-a açıqlamasında demişdi ki, istənilən istehlak malının vətəndaş üçün əlçatanlığı təmin edilməlidir: "Brend marka deyib onu ölkəyə buraxmayacaqsansa, onda gərək biz hamımız italyan ayaqqabısı geyinək. Onun da qiyməti kifayət qədər bahadır. Bu məsələ ciddi təhlil olunmalı, sonra bu nəticəyə gəlinməlidir. Qərar verilən zaman əsas məqsəd istehlak malının vətəndaş üçün əlçatanlığı olmalıdır".

Ekspertin sözlərinə görə, bu addım vətəndaşların büdcəsinə də təsir edəcək: "Bu gün 10 milyon Azərbaycan əhalisi böyüklü-kiçikli ayaqqabı geyinir, amma ölkədə ayaqqabı istehsalı yoxdur. Yaxşı bəs bunlar necə qarşılanacaq? Ölkə əhalisinin yarısının əmək haqqısı 500 manatdan aşağıdır. 4 nəfərdən ibarət bir ailə pulunu qidayamı versin, yoxsa qeyri-ərzaq mallarına? Biz əgər brend malların istehsalını gündəmə gətiririksə, onda ölkə ən azından həmin aşağı büdcəli ailələr üçün də bunun yerli istehsalını təmin etməlidir. Əynimizdə olan paltarlara baxsaq, yerli istehsal heç nə yoxdur. Ölkədə istehsal olunmayandan sonra bu addımı atmaq nə dərəcədə faydalıdır bilmirəm".

Əlbəttə, bu yanaşmada haqlı məqamlar az deyil. Lakin unutmayaq ki, söhbət eyni zamanda "brend mal" adı altında 15-20 manatlıq köynəyin müştəriyə 40-50 manata, 20-30 manatlıq ayaqqabının 60-70 manata sırınmasından gedir. Belədə kimlərsə, obrazlı desək, "qaz vurub qazan doldurur", vətəndaşın isə cibi soyulur. Biz hələ sözügedən məhsulların sağlamlığa zərərlərindən danışmırıq. Bu mallar başda allergiya, dəri-zöhrəvi xəstəlikləri olmaqla ciddi fəsadlara yol açırlar.

Qeyd edək ki, Azərbaycanda müxtəlif brendlərin adından saxta məhsul istehsal edən sexlərin varlığına, eləcə də bu cür malların ölkəyə idxalı ilə məşğul olan distribütorların mövcudluğuna dair illərdir iddialar səsləndirilir. Lakin onların bu cür rahat fəaliyyət imkanlarını necə, kimlərin sayəsində qazandığı müəyyən qədər qaranlıq qalır. Aydın məsələdir ki, hansısa gizli əllərin dəstəyi, himayəsi olmadan belə bir fəaliyyət mümkünsüzdür. Görünür, elə həmin gizli əllər də "brend mal" saxtakarlığının qarşısını almağı əngəlləyirlər.

Bəs problemin köklü həlli üçün nə etməli? Bu sualın cavabını isə hələ ki, bilən yoxdur...

***Sənan Mirzə***

28_27 IYUl-QARA.qxd 8/15/2024 9:26 PM Page 8



# Adil Kərimli sələflərinin yolu ilə gedir

## Bakı Mədəniyyət İdarəsindəki ciddi nöqsanlara niyə göz yumulur?

***Bu günlərdə məlum oldu ki, Hesablama Palatası Bakı Mədəniyyət Baş İdarəsində audit yoxlaması aparıb və çoxsaylı nöqsanlar aşkarlayıb. Palatanın hesabatında qeyd edilir ki, 01.01.2022- 01.01.2024-cü illəri əhatə edən audit yoxlaması zamanı xüsusilə dövlət satınalmalarında, əmək haqqının hesablanmasında, dərslərin tarifləşdirilməsində ciddi nöqsanlar aşkar edilib. Eyni zamanda məlum olur ki, dövlət büdcəsindən ayrılan vəsaitlərin icrası zamanı bir neçə halda vəsaitin təyinatının dəyişdirilməsi, həmçinin artıq istifadəsi hallarına yol verilib.***

Hesabatda qeyd olunub ki, idarənin əhatəsindəki ümumilikdə 36 musiqi məktəbində dərs saatlarının tarifləşdirilməsinin hüquqi aktlara uyğunluğu vəziyyətinin müəyyənləşdirilməsi məqsədilə fərqli audit prosedurlarının tətbiq edilməsi yolu toplanmış audit sübutları bir sıra hallarda şagird axınının düzgün idarə olunmaması, dərslərin artıq tarifləşdirilməsi səbəbindən artıq qrupların yaradılması ilə dərs saatlarının daha çox tarifləşdirilməsinə yol verildiyini qeyd etmək imkanı verib. Bu hallar 6 musiqi məktəbi üzrə müəyyən edilməklə 37,9 min manat dövlət vəsaitinin artıq istifadəsinə şərait yaranıb. Eyni zamanda, təqdim olunmuş dərs saatlarının hesabı cədvəli və tarifləşmə cədvəlləri əsasında seçmə qaydada 18 musiqi məktəbi üzrə toplanmış audit sübutları ilə 146,5 saat artıq dərslər hesabına 39 041,63 manat artıq əmək haqqı hesablanaraq ödənilməsi müəyyənləşdirilib.

Bundan başqa, əməyin ödənişi qruplarının müəyyənləşdirilməsi prosesində mədəniyyət müəssisələrinin fəaliyyətini xarakterizə edən hesabat göstəricilərinin hüquqi aktlarla müəyyən edilmiş dövr üçün nəzərə alınmaması əməyin ödənişi qrupunun yüksək təyin edilməsi hesabına tarif dərəcələrinin düzgün müəyyənləşdirilməməsinə, bununla da vəsaitin artıq istifadəsinə səbəb olub. 10 mərkəzləşdirilmiş kitabxana sistemləri (MKS) üzrə ümumilikdə 362 halda cəmi 99,4 min manat əmək haqqı düzgün ödənilməyib, əvvəlki auditin nəticələri ilə müqayisədə 5 MKS üzrə həmin nöqsan cari auditlə müəyyən edilib. Analoji nöqsan digər müəssisələr üzrə də müəyyənləşdirilib, 22 mədəniyyət evi, klub, mərkəz və mədəniyyət sarayı üzrə cəmi 21,7 min manat, 4 teatr, konsert təşkilatları, bədii kollektivlər üzrə 200 min manat, 3 xatirə muzeyi və muzey tipli digər müəssisələr üzrə cəmi 1,3 min manat əmək haqqı düzgün ödənilməyib.

Həmçinin ödənişli kurs və dərnəklərin fəaliyyətinin təşkilində bir sıra nöqsanlara yol verilib. Məsələn, ödənişli kurs və dərnəklərə təyin olunmuş rəhbərlərin təhsili və peşəixtisas hazırlığının bəzi hallarda tədris olunan peşə və sənətin növünə və spesifik xüsusiyyətlərinə uyğun olmadığı müəyyən edilib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi tərəfindən 2022-2023-cü illərdə həyata keçirilmiş dövlət satınalmaları həmin dövrə qüvvədə olan hüquqi aktların tələblərinin bir sıra hallarda pozulması ilə müşayiət olunub. 2022-ci il üçün satınalma planı müvafiq qaydada tərtib edilərək yerləşdirilsə də, 2023-cü ildə bu həyata keçirilməyib. 2022-ci il üçün nəzərdə tutulan və icra edilən satınalmalar fərqlənib. 2023-cü ildə isə satınalma metodları tətbiq edilməyib, həyata keçirilən alışlar satınalma metodlarının tətbiqini tələb edən məbləğdən aşağı olmaqla bağlanan müqavilələr əsasında icra olunub. İdarə tərəfindən 2023-cü ildə dövlət tələbatının ödənilməsi məqsədilə bağlanan müqavilələr dövlət büdcəsinin və büdcədənkənar fəaliyyətdən gələn vəsaitlər üzrə olmaqla ayrı-ayrılıqda icra edilib. Bəzi hallarda bu yanaşma eyni predmetlər üzrə alışların satınalma metodlarının tətbiqindən yayınmağa şərait yaradıb və s.




Hesabatdan o da aydın olub ki, nöqsanlarla bağlı müəyyən tədbirlər həyata keçirilib. Lakin nöqsanlara yol verən vəzifəli şəxslərlə bağlı hər hansı tədbirin görülməsi barədə bilgi yoxdur. Qaynarinfo bununla bağlı Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayıb. Nazirliyin cavabından aydınlaşıb ki, nöqsanlara yol verənlərə sadəcə yazılı xəbərdarlıq edilib!

Yeri gəlmişkən, xatırladaq ki, Bakı şəhər Mədəniyyət İdarəsinin rəisi İbrahim Əliyevdir. O, 2022-ci ildən bu vəzifədədir. İbrahim Əliyev İdarənin rəisi vəzifəsinə təyinat alandan sonra onun qanunazidd qərarlar qəbul etdiyi barədə məlumatlar yayılıb. Həmin məlumatlarda iddia olunur ki, İbrahim Əliyev təhsili olmayan şəxsləri Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tabeliyindəki mədəniyyət ocaqlarında rəhbər vəzifələrə təyin edir.

O ki, qaldı Hesablama Palatasının aşkarladığı ciddi nöqsanlara, maliyyə pozuntularına baxmayaraq cavabdeh şəxslərə yalnız xəbərdarlıq elan olunması ilə kifayətlənilməsinə, təəssüf ki, bu Əbülfəs Qarayev və Anar Kərimovun nazir olduğu dönəmlərdəki absurd təcrübənin davamı təsiri bağışlayır. Adları çəkilən iki sabiq nazirin vaxtında da korrupsiya faktları ya tamamilə cəzasız qalır, ya da töhmətlə, hətta şifahi xəbərdarlıqla iş bitmiş sayılırdı. Nəticə göz önündədir: yeyintilərə, mənimsəmələrə görə cəzasızlıq o həddə çatdı ki, sonda DTX tərəfindən xüsusi əməliyyatlara ehtiyac duyuldu, kifayət qədər yüksək post sahibləri saxlanıldı, həbs edildi.

Odur ki, hazırkı nazir Adil Kərimlinin də Qarayev və Kərimovun zamanlarındakı xoşagəlməz təcrübəni davam etdirməsinin sonucda bənzər nəticələrə gətirib çıxarmayacağını təxmin etmək elə də çətin deyil...

***Sənan Mirzə***

# 4 deputatlığa namizədə xəbərdarlıq edildi



***Sentyabrın 1-də keçiriləcək Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə namizədliyi qeydə alınan dörd nəfərə xəbərdarlıq edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından məlumat verilib.

Belə ki, seçkilərdə 28 saylı Naxçıvan şəhər seçki dairəsindən namizədliyi qeydə alınan İsmayılxanlı Rövşən Əli oğlu, 8 saylı Düdəngə seçki dairəsindən namizədliyi qeydə alınan Mahmudov Rövşən Əzim oğlu, Mehdiyev Həkimeldostu Bayram oğlu və Nadirov Cavanşir Abbasqulu oğlu "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" qanunun 63-cü maddəsinin tələblərini pozaraq seçkiqabağı təşviqat aparılması müddətinin tələblərinə əməl etməyiblər.

Bildirilib ki, 28 saylı Naxçıvan Şəhər və 8 saylı Düdəngə dairə seçki komissiyaları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" qanunun müvafiq maddələrini rəhbər tutaraq onlara xəbərdarlıq ediblər.

# "Sea Breeze" məhkəməyə verildi




***"Sea Breeze" Məhdud Məsuliyyətli Cəmiyyəti məhkəməyə verilib.***

"Unikal"ın əldə etdiyi məlumata görə, İsmayılzadə Əbülfət Yardar oğlu torpaq münasibətləri üzrə sair mübahisələrlə bağlı Sabunçu Rayon Məhkəməsinə müraciət edib.

İş artıq icraata götürülüb. Məhkəmə prosesinə hakim Adilə Paşayeva sədrlik edəcək.

***Murad İbrahimli***

# Şəhid Cavanşir Hüseynov və Tahir Şirinovun qalıqları dəfn edilib

***Birinci Qarabağ müharibəsində itkin düşmüş, 30 ildən sonra dəfn yeri və kimliyi müəyyənləşdirilən şəhid Cavanşir Hüseynovun və Tahir Şirinovun qalıqları ailələrinə təhvil verilib.***

Hər iki şəhidin qalıqları bu gün Abşeron rayonu Mehdiabad qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edilib.

Hüseynov Cavanşir Ərşad oğlu 1960-cı ildə Cəbrayıl rayonunun Doşulu kəndində anadan olub.

Şirinov Tahir Şirin oğlu oğlu da 1959-cu ildə Cəbrayıl rayonunun Doşulu kəndində anadan olub.

Qeyd edək ki, Cəbrayıl rayonunun Doşulu kənd sakini Şirinov Tahir Şirin oğlu 23 oktyabr 1993-cü il tarixdə atası Şirinov Şirin Bilal oğlu, qardaşı Şirinov Nazim Şirin oğlu və dayısı oğlu Hüseynov Cavanşir Ərşad oğlu ilə birlikdə Füzuli rayonunun Şükürbəyli kəndində itkin düşüb.

Nazim Şirinovun qalıqları iyunun 7-də Mehdiabaddakı Şəhidlər xiyabanında dəfn olunub.

# Daxili Qoşunların əsgəri vəfat etdi

***Daxilin Qoşunlarının müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Qurbanov Sərxan Nəriman oğlu xəstəlikdən vəfat edib.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

"Hərbi qulluqçunun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk. Faktla bağlı araşdırma aparılır", - deyə məlumatda qeyd edilib.

28_27 IYUI-QARA.qxd 8/15/2024 9:26 PM Page 9



# Səhiyyə Nazirliyindən əhaliyə çağırış




***Hazırda əhali arasında arabir hərarətin yüksəlməsi, ümumi zəiflik, baş və əzələ ağrıları, yuxarı tənəffüs yollarının zədələnməsi əlamətləri olan öskürək, boğaz ağrısı, burun axması və ya tutulması kimi, bəzən isə ürəkbulanma, qusma, qarın işləməsi kimi hallar müşahidə edilir***

"Unikal" xəbər verir ki, bunu Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov deyib.

Onun sözlərinə görə, bunlara səbəb əsasən müxtəlif virus və bakterial infeksiyalardır: "Hər il isti aylarda kəskin respirator virus infeksiyalarından paraqrip, adenovirus infeksiyaları mühitdə dövr etdiyindən, hazırda da bu tip xəstəliklər qeydə alınır. Hətta isti aylarda bəzən yoluxma saylarında artımlar da müşahidə olunur. Adenoviruslar təkcə tənəffüs yollarını deyil, mədə-bağırsaq sistemini də zədələyə bilir. Eyni zamanda, hər iki sistemin zədələnmə əlamətləri ilə müşayiət olunan və isti dövrlərdə rast gəlinən rotavirus, hava-damcı və təmas ilə daha çox yayılan enterovituslarıdır".

Ekspert bildirib ki, bu cür infeksiyaların isti aylarda yayılmasının müxtəlif səbəbləri var: "Bunlara həddən artıq isti havanın immunitetə mənfi təsir göstərməsi, yuxarı tənəffüs yollarının quruması nəticəsində infeksiyalara müqavimətin azalması, kondisionerlərin istifadəsi zamanı açıq hava ilə müqayisədə yaşayış və iş yerlərində kəskin temperatur fərqinin olması, otaqların qapalı saxlanması, yay məzuniyyəti ilə əlaqədar əhalinin müxtəlif kütləvi istirahət tədbirləri, çimərlik mövsümünü və s. aid etmək olar".

T.Eyvazov, həmçinin qeyd edib ki, bu infeksiyalar əsasən yüngül və fəsadsız keçir: "Özümüzü qorumaq üçün xəstəlik əlamətləri olan şəxslərlə yaxın təmasdan çəkinməli, gigiyena qaydalarına əməl etməliyik. Unutmayaq ki, yay aylarında rast gəlinən günvurmanın əlamətləri də bu xəstəliklərlə oxşar ola bilər. Yuxarıda qeyd edilən əlamətləri özündə hiss edən insanlara vaxtında həkimə müraciət etmək tövsiyə olunur".

# ÜST həyəcan təbili çalır: Meymunçiçəyi virusu sürətlə yayılır

***Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Afrikada meymunçiçəyi epidemiyasını qlobal fövqəladə vəziyyət elan edib. 2022-2023-cü illərdə qlobal meymunçiçəyi epidemiyası baş verib, lakin indiki epidemiya daha təhlükəli bir ştama səbəb olub.***




"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, yeni epidemiya 450 nəfərin öldüyü Konqo Demokratik Respublikasında yayılan virusla başlayıb, sonra isə mərkəzi və şərqi Afrikaya yayılıb.

Ümumdünya Səhiyyə Təşkilatının rəhbəri Tedros Adhanom Qebreyesus, bu ilin birinci yarısında yoluxmaların sayının ötən ilin bütün hadisələrinin sayını keçdiyini açıqlayıb və o, ÜST-nin fövqəladə hallar komitəsinin tövsiyəsi ilə yeni epidemiyanı "ictimai" elan edib.

"Bu epidemiyanı dayandırmaq və insanları xilas etmək üçün beynəlxalq ictimaiyyətin koordinasiyalı reaksiyasına ehtiyacımız var", - deyə Baş direktor həyəcan təbili çalıb.

Meymunçiçəyi çox yoluxucu viral xəstəlikdir, virus insandan insana birbaşa dəri ilə təmasda və ya tənəffüs damcıları ilə ötürülür.

Xəstəlik qripə bənzər əlamətlərlə, həmçinin dəridə səpgilər və qabarcıqlarla müşayiət olunur və orta hesabla yüz hadisədən dörddə biri ölümlə nəticələnir.

***Gülayə Mecid***

# Sabiq nazir müavini yenidən yüksək vəzifə axtarışında

## Sabiqlərin izi ilə: bir vaxtlar hətta nazir olacağı deyilən İntiqam Babayevlə bağlı ilginc iddia...

***"Unikal" qəzeti keçmiş məmurların və eks-deputatların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcini davam etdirir. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən bugünkü məqaləmiz gənclər və idman nazirinin sabiq müavini İntiqam Babayev haqqındadır.***

2021-ci ildə bu postdan azad edilən 50 yaşlı Babayev 1991-1996-cı illərdə Bakı Dövlət Universitetinin Tarix fakültəsində təhsil alıb. Əmək fəaliyyətinə 1996-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının müəllimi kimi başlayıb. 1998-1999-cu illərdə Gənclər, İdman və Turizm Nazirliyinin Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri, 1999-2000-ci illərdə Bakı şəhər İcra Hakimiyyətinin Siyasi partiyalar və ictimai təşkilatlarla iş şöbəsinin müdiri vəzifəsində çalışıb.



2000-ci ildən isə nazir müavini kimi işləyən Babayevə hətta sabiq gənclər və idman naziri Azad Rəhimovun potensial xələfi kimi baxılırdı. Lakin Rəhimovun dünyasını dəyişməsinin ardından Babayevin də adı çəkilən nazirlikdəki karyerası başa çatdı. Buna isə Gənclər və İdman Nazirliyində aparılan yoxlamalar nəticəsində aşkarlanan ciddi korrupsiya faktları səbəb olmuşdu. Belə ki, digər nazir müavini İsmayıl İsmayılovla yanaşı, İntiqam Babayev də tutduqları postlardan kənarlaşdırılmışdı.

Yerli mediadakı iddialara görə, Gənclər və İdman Nazirliyinin xətti ilə həyata keçirilən tədbirlərə külli miqdarda vəsaitlər müxtəlif MMC-lərə köçürülərək faktiki olaraq "silinmişdi". Həmçinin bu cür vəsaitlərin köçürüldüyü və nazirliyin sifarişi ilə dövlət səviyyəli tədbirlər təşkil etdiyi iddia olunan MMC-lərin sahiblərinin ümumiyyətlə baş verənlərdən xəbərsiz olduqları, kiçik miqdarlarda vəsait müqabilində müxtəlif sənədlərə imza atdırılaraq aldadıldıqları vurğulanırdı.

O da iddia edilirdi ki, üzə çıxarılan korrupsiya qoxulu faktlar və bir sıra digər şübhəli məqamlar məhz İntiqam Babayevin kurasiya etdiyi sahəni əhatə edir.

Ümumiyyətlə internet üzərindən aparılan kiçik bir araşdırma kifayət edir ki, Babayevin nazir müavini işlədiyi dövrlərdə onun ünvanına müxtəlif yollarla dövlət vəsaitlərini talamaq, gənclər üçün nəzərdə tutulan dövlət mükafatlarını layiq olmayan şəxslərə təqdim etmək, ayrı-ayrı gənclər təşkilatlarının fəaliyyətini şəxsi maraqları əsasında iflic etmək kimi ağır ittihamlarla qarşılaşasan.

Babayevlə bağlı "nurçu" iddiaları da uzun müddət gündəmdə olmuşdu. "Bəzi mətbuat orqanlarında mənim "nurçu" olmağımla bağlı yayılan xəbərləri gülüşlə qarşılayıram. Əslində bu fikirlər həm sözügedən mətbu orqanlarının, həm də orda çalışan yazarların qeyri-ciddiliyindən xəbər verir" deyə İntiqam müəllim belə iddialara cavab vermişdi. Sabiq nazir müavini "nurçu" cərəyanına aidiyyəti olmadığını qəti şəkildə dilə gətirsə də, oxşar iddialar sonralar da səsləndirilməyə davam etmişdi.

Nazir müavinliyindən uzaqlaşdırılmasının ardınca mətbuatda Babayevin Mərkəzi Asiya ölkələrindən birinə səfir göndəriləcəyinə dair xəbərlər yayıldı. Hətta konkret ölkə adı da çəkilirdi, iddia edilirdi ki, keçmiş müavin Azərbaycanın Qırğızıstandakı səfiri təyin olunacaq. Lakin bu xəbərlər sonradan təsdiqini tapmadı.

Bir müddət işsiz qaldıqdan sonra - 2022-ci ilin martında İntiqam müəllim Nazirlər Kabineti Aparatının Sosial məsələlər şöbəsinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə iş sektorunun müdiri təyin olundu. Lakin çox keçmədən o, yeni vəzifəsindən də uzaqlaşdı. Belə ki, elə 20022-ci ilin dekabrında sektor müdirliyi ilə vidalaşan sabiq nazir müavini cəmi iki həftə sonra "İçərişəhər" Qoruğu İdarəsinin Aparat rəhbəri təyin olundu.

"Unikal"ın əldə etdiyi məlumata görə, hazırda eks-müavinin öz karyera yüksəlişini bərpa etmək imkanı yaranıb. Belə ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərində namizəd olan "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə vəzifəsinin icrasını müvəqqəti dayandırıb. Bildirilir ki, sədrin səlahiyyətlərini müvəqqəti olaraq İntiqam Babayev icra edəcək.

Onu da vurğulayaq ki, Ş.Sərdarzadə namizədliyini 87 saylı Qobustan - Şamaxı - İsmayıllı seçki dairəsindən irəli sürüb. Sözügedən dairədən məhz onun deputat mandatı qazanacağı ehtimal olunur. Belədə isə onun "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsi ilə vidalaşacağı deyilir. İddialara görə, onu məhz Babayev əvəzləyəcək.

Xatırladaq ki, sözügedən post indiyədək təcrübədə bir çox şəxslərə karyera qapılarının onların üzünə geniş açılmasında mühüm rol oynayıb. Bu baxımdan İntiqam müəllim də adı çəkilən qurumun rəhbəri təyin edilərsə, onun da yenidən yüksəlişə keçməsi və bir müddət sonra daha yuxarı vəzifələrə təyinat alması real görünür.

***Toğrul Əliyev***

28_27 IYUI-QARA.qxd 8/15/2024 9:27 PM Page 10



# Azərbaycan oliqarxlarının Rusiya və Ukrayna dərdi

## Müharibənin getdikcə gücləndiyi bu iki ölkədə biznesi olan indiki və sabiq məmurların son qərarı nə olacaq?

***Sahibkarlıq şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürməsini özündə ehtiva edən fəaliyyət növüdür. Hər bir Azərbaycan vətəndaşı sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər. “Sahibkarlıq fəaliyyəti haqqında” qanunda belə deyilir. Lakin bəzi istisnalarla.***

Qanuna görə, dövlət məmurları, Milli Məclisin deputatları və digər bu qəbildən olan şəxslər sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməz. Lakin buna baxmayaraq, bu gün ölkədə və onun hüdudlarından kənarda biznes fəaliyyəti ilə məşğul olan kifayət qədər məmurlar var. Düzdür, onlar bu fəaliyyətlərini rəsmi şəkildə həyata keçirmirlər, özlərinə yaxın şəxslərin adlarına rəsmiləşdirirlər. Adətən öz şəxsi statusundan və təsir imkanlarından bu biznes şəbəkələrini böyütmək üçün istifadə edirlər. Belə hallara son qoyulması ilə bağlı ən yüksək səviyyədə dəfələrlə xəbərdarlıq edilsə də, sahibkar-məmurlar bundan nəticə çıxarmırlar.



İndi isə onların bəziləri, daha doğrusu, biznesləri üçün xoşagəlməz vəziyyət yaranıb. Öncə yayılan bir xəbərə nəzər salaq. Həmin xəbərdə vurğulanır ki, Rusiya 2024-cü ildə “dollar milyonçularının” ölkədən getməsinə görə dünyanın ilk beş ölkəsindən biridir. Belə ki, “Henley & Partners” konsaltinq şirkətinin məlumatına görə, bu il Rusiyanı min nəfər “dollar milyonçusu” tərk edib.Milyonçu axınına görə BƏƏ birinci yeri tutub. Əmirliklər bu il 6700 “dollar milyonçusu” qəbul edib.

Onların belə qərar verməsinə Rusiya ilə Ukrayna arasında getdikcə uzanan, üstəlik, son vaxtlar daha da kəskin xarakter alan və yaxın vaxtlarda bitməsi real görünməyən müharibənin səbəb olduğu şübhə doğurmur. Üstəlik, bir neçə gündür Ukrayna tərəfinin öz torpaqlarındakı hərbi əməliyyatları gözlənilməz şəkildə Rusiya ərazisinə keçirməsi və Kursk istiqamətində xeyli irəliləyərək ən son məlumatlara görə azı min kvadrat kilometrlik ərazini nəzarət altına alması 2022-ci ilin fevralından bəri davam edən savaşın yeni mərhələyə qədəm qoyduğunu, bir sözlə, obrazlı desək, ”bu xəmirin hələ çox su aparacağını” söyləməyə əsas verir. Belədə, ”dollar milyonçularının” Rusiyanı tərk etməsində təəccüblü heç nə yoxdur.

İndi isə gələk mətləbə. Rusiyada, eləcə də Ukraynada Azərbaycanın bir çox indiki və sabiq məmurlarının, onlara yaxın iş adamlarının biznes sahibi olduğu sirr deyil. Maraq doğuran sual isə budur: həmin oliqarxlar qanlı savaşın dayanmaq bilmədiyi, üstəlik, getdikcə kəskinləşdiyi bir şəraitdə adları çəkilən ölkələrdəki bizneslərinin gələcəyi ilə bağlı nə düşünürlər?

Məsələn, Rusiyada biznes fəaliyyəti olan sabiq məmurlarımızdan biri keçmiş mədəniyyət naziri Əbülfəs Qarayevdir. Belə ki, bu ölkədə daşınmaz əmlakın alqı-satqısı ilə məşğul olan “QALS” şirkəti (VÖEN-7705544330) Qarayevin qızı Suad Malekiyə (Qarayeva) məxsusdur. “QALS” şirkəti 05.07.2013-cü ildə Moskva şəhəri, Tatarskaya küçəsi 7 ünvanında dövlət qeydiyyatına alınıb. Mətbuatda yayılan məlumatda bildirilir ki, “QALS” sabiq nazirin özünün və ailə üzvlərinin adının baş hərflərindən (Qarayev, Abülfəz, Lalə (həyat yoldaşı) və Suad (qızı)) ibarətdir.

Rusiyada şirkət sahibi olan azərbaycanlı oliqarxlar arasında Milli Məclisin sabiq sədri Oqtay Əsədov da var. Hüququ ünvanı Moskva şəhəri, Bakı küçəsi, ev 29-da yerləşən və restoran sektorunda fəaliyyət göstərən “Arizarum Qrup” (VÖEN- 7705176856) şirkətinin rəsmi təmsilçisi sabiq spikerin həyat yoldaşı Zemfira Əsədovadır. “Arizarum Qrup” 14 yanvar 1998-ci ildən fəaliyyət göstərir.

Bundan başqa, sabiq deputat Əsabil Qasımovun, Baş nazirin müavini Yaqub Eyyubovun Rusiyada, keçmiş ”diaspora şefi” Nazim İbrahimovun, ötən il vəzifəsindən kənarlaşdırılan Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyevin Ukraynada biznes sahibi olduqlarını da unutmayaq.

Siyahı adları çəkilənlərlə yekunlaşmır və bu sıralamanı kifayət qədər uzatmaq mümkündür.

Xarici iş adamları, ”dollar milyonçuları” Rusiyanı tərk etməyə başladığı, Ukrayna ilə məsafə saxladığı indiki situasiyada adını çəkdiyimiz və çəkmədiyimiz azərbaycanlı oliqarxlarının sözügedən ölkələrdəki bizneslərinin gələcəyi ilə bağlı nələr fikirləşdiyi barədə dəqiq məlumat yoxdur. Lakin əminliklə demək olar ki, proseslərin hazırkı gedişatı və gözlənilən inkişafı şəraitində indiki və sabiq məmurlarımız bu mövzuda xeyli təlaşlıdırlar. Rusiya-Ukrayna savaşı fonunda gələcəklə bağlı qeyri-müəyyənliyin get-gedə artması bizim oliqarxları da müəyyən qərarlar verməyə məcbur edə bilər. Söhbət onların haqqında danışılan iki ölkədəki biznesi böyük ölçüdə başqa ölkələrə ”transfer” etmək istəyindən gedir. Belə ölkələr arasında bəzi postsovet respublikalarının, məsələn, Moldova, Gürcüstan, yaxud Belarusun olaması indiki şəraitdə ağlabatan görünür.

Onu da deyək ki, əvvəlki illərdən fərqli olaraq son vaxtlar bizim indiki və eks-məmurların ölkə xaricində biznes qurarkən, yaxud mövcud bizneslərini inkişaf etdirmək istəyərkən Rusiyanı seçmədiyi müşahidə olunur. Onlar qonşu ölkələrdən Türkiyəyə üstünlük verməyə başlayıblar, baxmayaraq ki, orada da ciddi iqtisadi böhran yaşanır və türk valyutası (lirə) dollar, eləcə də avro qarşısında ucuzlaşmağa davam edir. Həmçinin oliqarxlarımız Şərqi Avropa ölkələrinə də ciddi maraq göstərirlər.

***Toğrul Əliyev***

# "Şuşa və Xankəndidə seçkilərə ciddi hazırlıq gedir" - Baba Vəziroğlu



***“Hazırda yeni bir tarixi dövr yaşayırıq. İlk dəfədir ki, Azərbaycanın bütün ərazisində parlament seçkiləri keçiriləcək və xalqımız öz təmsilçilərini seçəcək”.***

“Unikal” xəbər verir ki, bunu “Seçki 2024” Müstəqil Media Mərkəzinə açıqlamasında əməkdar incəsənət xadimi Baba Vəziroğlu deyib.

O qeyd edib ki, Azərbaycan bu uğura Ali Baş Komandan İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində nail olub: “Şəhidlərimizin qanı, qazilərimizin canı bahasına başa gələn tarixi qələbənin nəticəsidir ki, bu gün Azərbaycanın hər bir nöqtəsində seçicilər səs verəcəklər. Bu baxımdan bu parlament seçkiləri xüsusi önəm daşıyır. Mən özüm Şuşa və Xandəndidən yeni qayıtmışam. Orada da parlament seçkilərinə ciddi, yüksək səviyyədə hazırlıq gedir. Hesab edirəm ki, bu parlament yeni reallıqlara uyğun olmalıdır, xalqımızı və dövlətimizi layiqində təmsil etməlidir”.

# Oğuz-Qəbələ su xəttində təmir işləri yekunlaşdı



***Oğuz-Qəbələ su xəttində aparılan təmir-bərpa işləri səhər saat 6-da tamamlanıb.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə daxil olan İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin mətbuat xidmətinin rəhbəri Ceyhun Musaoğlu bildirib.

”Hazırda su xəttinin doldurulması və quyuların işə salınması işlərinə başlanılıb. Ətraflı məlumat yayacağıq”, - deyə o qeyd edib.

# "Silahlar polisə könüllü təhvil verilməlidir" - DİN çağırış etdi



***”Hələ də bəzi şəxslərdə qanunsuz saxlanılan odlu döyüş silahları, sursatlar var. Müharibə qalıqlarıdır. Kimdə varsa, könüllü təhvil verilməlidir”.***

”Unikal” xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin rəisi, polis polkovnik-leytenantı Elşad Hacıyev deyib.

”Polis əməkdaşlarına dünən də - avqustun 14-də paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 2 avtomat silahı, 1 tapança, 2 tüfəng, 2 patron darağı və 54 ədəd müxtəlif çaplı sursat könüllü təhvil verilib. O silahları təhvil verənlər ilk növbədə özünü və ailəsini məhrumiyyətlərdən xilas edir. Bilir ki, əməliyyat tədbirləri ilə tutulsa cinayət məsuliyyətinə cəlb olunacaqdır. Silah təhlükə mənbəyidir, gecitezi var, o silahı gizlədən şəxs onu bir gün çıxaracaqdır. Bu sirr deyil ki, əsəb gələndə, sərxoş olduqda insanın ağılı gedir, affekt halı yaranır, yaxud şəxsiyyət ikiləşir. Heç kim deyə bilməz ki, əsəbləşən, sərxoşluq halında olan biri o silahdan istifadə etməyəcəkdir. Ona görə də bir daha çağırış edirik, o silahlardan kimdə varsa könüllü təhvil versin.

Bu halda məsuliyyət yaranmır, bununla bağlı zəmanət veririk, diqqətə çatdırırıq ki, cinayət aləti olmayan silahları könüllü təhvil verən şəxslərlə bağlı indiyə qədər hər hansı tədbir görülməyib və görülməyəcəkdir”, - deyə o qeyd edib.

# İş stresi ürək çatışmazlığına səbəb ola bilər



***"İş stresi atrial fibrilasiyanın (Şiddətli çarpıntılar, nəfəs darlığı, sinə ağrısı, başgicəllənmə və nadir hallarda huşunu itirmə və s.- red) inkişaf riskini artıra bilər".***

"Unikal" xəbər verir ki, bu barədə araşdırma "Journal of the American Heart Association"da dərc olunub. Atrial fibrilasiya aritmiyanın ən çox yayılmış formasıdır. Bu, insult, ürək çatışmazlığı və ya digər ürək-damar ağırlaşmalarına səbəb ola bilər. Amerika Ürək Assosiasiyası 2030-cu ilə qədər ABŞ-də 12 milyondan çox insanın ürək xəstəliyi və insultdan əziyyət çəkəcəyini proqnozlaşdırır. Əvvəlki tədqiqatlar yüksək iş təzyiqi koroner ürək xəstəliyi riskinin artması ilə əlaqələndirdi. Kvebekdəki Laval Universitetinin peşə və ürək-damar epidemioloqu və dosenti Xavier Trudel bildirib ki, bu tədqiqat həm psixososial iş stressorlarının atrial fibrilasiyaya mənfi təsirlərini araşdıran ilk tədqiqatdır.

"Tədqiqatımız göstərir ki, işlə bağlı stressorlar profilaktika strategiyalarına daxil edilməli vacib amillər ola bilər. İşdə psixososial stressorların müəyyən edilməsi və aradan qaldırılması həm fərdlərə, həm də işlədikləri təşkilatlara fayda verən sağlam iş mühiti yaratmaq üçün vacibdir", - deyə Trudel bildirib.

*Gülayə Mecid*

# Torpağı Vətən edən igid...

***İkinci Qarabağ müharibəsində sinəsini Vətəninə sipər edən qəhrəman oğullardan biri də 1994-cü ildə Lənkəranın Girdəni kəndində dünyaya göz açan Kənan Axundzadədir.***

Düşmənə nifrət hissi ilə boy atan Kənan həqiqi həbi xidmətini cəbhə bölgəsində, yağı düşmənlə üz-üzə doğma Azərbaycanın keşiyində durmaqla başa vurur. O, evdə özünə heç cür rahatlıq tapa bilmir. Axı, Azərbaycanın müqəddəs paçası olan Qarabağı işğal edən düşməndən alacağı öcü hələ qalırdı. Odur ki, 2020-ci ilin avqust ayında müddətdən atıq həbi xidmət keçmək məqsədilə yenidən orduya yazılır.

Vətən müharibəsi başlanan gündən Kənan düşmənlə ölümdirim savaşına girir. Qartal kimi yağının üstünə şığıyır və neçə-neçə döyüşdən zəfərlə çıxır. 2020-ci ilin 30-oktyabrı isə onun cavan ömrünə son qoyur. Beləcə, şərəfli ölümü millətinə başucalığı gətirən Kənan Vətənini yaşatmaqla ürəklərdə özünə əzəmətli abidə ucaldır. Həm də ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda", Füzulinin, Xocavəndin azadlığına görə medallarla təltif olunur.

Qalib şəhid Kənan Axundzadənin 30 yaşının tamamında Lənkəran Mədəniyyət Mərkəzində "Tariximiz qürurumuzdur" layihəsi çərçivəsində tədbir keçirildi. Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə baş tutan tədbirə Şəhər İcra Hakimiyyətinin başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva və digər rəsmilər, şəhid ailələrinin üzvləri, müharibə əlilləri, rayon ictimaiyyətinin nümayəndələri qatılmışdı.

Görüşdə şəhidin şəxsi əşyaları və fotolarından ibarət sərgi təqdim olundu və onun şərəfli həyat yolunu özündə əks etdirən video-çarx göstərildi. Daha sonra şəhidin anasına mərkəzin rəsm studiyasında yağlı boya ilə çəkilmiş Kənan Axundzadənin portreti təqdim edildi.

Çıxışlarda isə şəhid Kənan Axundzadənin vətənpərvərliyindən, mərdliyindən, doğma Azərbaycana sonsuz sevgisindən danışdılar, məktəblilər Vətənə, qələbəyə həsr olunan şerlər söylədilər və tanınmış müğənnilərin ifasında şəhidlər haqqında mahnılar dinlənildi.

*Zəfər Orucoğlu,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# Elektron ərizə qəbulu müvəqqəti dayandırılır

***Xarici dövlətlərdə əldə edilmiş kvalifikasiyaların tanınması üzrə elektron ərizələrin qəbulu avqustun 15-dən sentyabrın 1-dək dayandırılır.***

"Unikal" xəbər verir ki, bu barədə Təhsildə Keyfiyyət Təminatı Agentliyi məlumat yayıb.

Bildirilib ki, elektron müraciət sisteminin daha effektiv işləməsi və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədi ilə sözügedən sistemdə mütəmadi olaraq texniki işlər aparılır.

# Bakıda lift xaosu: 70 ailəni gözləyən faciə və iki nazirliyin biganəliyi

## Doğrudanmı, potensial faciə ilə üz-üzə qalan yüzlərcə insanın səsini eşidən bir qurum tapılmayacaq?

***Nizami rayonu, Əli Vəliyev küçəsi, bina 5 ünvanda yaşayan yüzlərlə vətəndaşın təhlükəsizliyinə təhdid yaradan bir liftin məsuliyyətini boynuna alan bir dövlət qurumu yoxdur.***



Yeni qohum olduğumuz ailə Nizami rayonu, Əli Vəliyev küçəsi, bina 5 ünvanda 7-ci mərtəbədə yaşayır. Bina təxminən ötən əsrin 70-ci illərində tikilib və Müdafiə Nazirliyinin balansındadır. Binanın bu günkü sakinlərininin isə indi Müdafiə Nazirliyi ilə heç bir əlaqəsi yoxdur. Vaxtilə burda yaşamış hərbçilər mənzillərini mülki şəxslərə satıblar. Və indi həmin binanın liftləri qəza durumundadır!

Texniki təhlükəsizlik haqqında Azərbaycan Respublikasının qanununa əsasən bütün növ liftlər (istər yük lifti olsun istərsə də sərnişin lifti) təhükə potensiallı obyekt kimi FHN-nin Sənayedə İşlərin Təhlükəsiz görülməsi və Dağ-Mədən Nəzarəti (SİTGDMN) Dövlət Agentliyinin qeydiyyatındadır, üstəlik, bilavasitə ciddi nəzarət altında istismar edilə bilər. Bu qurğulara xidmət "Liftlərin təmiri və təhlükəsiz istismarı haqqında qaydalar" ilə tənzimlənir. Qaydalara əsasən, liftlərin təmiri ilə yalnız və yalnız ixtisaslaşmış xüsusi təşkilatlar məşğul olmalıdır. Həmin qurğular ildə bir dəfə və bütün təmir işlərindən sonra tam texniki sınaqdan keçməlidir. Haqqında danışılan qaydaların düzgün yerinə yetirilməsinə isə bilavasitə liftin sahibi cavabdehlik daşıyır. İndiki halda qaydaların yerinə yetirilməsinə nəzarət FHN-nin SİTGDMN Dövlət Agentliyindədir. Liftlərin cari təmirini həyata keçirməli olan isə Bakı Şəhər İcra Hakimiyyətinin "Lifttəmir" İstehsalat Birliyidir. Lakin adı çəkilən qurum məlum binanın yerləşdiyi ünvanı eşidən kimi sözümüzü ağzımızda qoyur: "Bina Müdafiə Nazirliyinin balansındadır, bizlik deyil!" Müdafiə Nazirliyi isə deyir ki, "orda hərbçi qalıb ki?" Adamdan soruşarlar: cənablar, orda hərbçi yoxdursa, bu binanı niyə saxlayırsınız? Binanın günahsız sakinləri ilə düşmənçiliyiniz nədir? Binanı çıxardın o xeyirsiz balansınızdan, imkan verin insanlar başının çarəsini tapsınlar!

Bina sakinləri 31 nəfərin imzası ilə Fövqəladə Hallar naziri Kamaləddin Heydərova, Müdafiə naziri Zakir Həsənova müraciərt etsələr də heç bir reaksiya yoxdur! FHN-nin qaynar xəttinə şəxsən özüm məlumat vermişəm. Müraciətim qeydiyyata da alınıb! Lakin nəticə sıfır! İnsanlar məcbur olub ölkə başçısına müraciət ediblər.

70 ailənin gözləyən faciə ilə bağlı binanın 15-20 metrlik qonşuluğunda yerləşən Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatına da məlumat verilib, kömək istənilib. Təşkilatın sədri Ramil Vəlibəyov sağ olsun, sakinlərin probleminə bir qədər isti yanaşıb, canıyananlıq göstərib. Görək, bu müraciətin sonu nə ilə nəticələnəcək.... Bir-iki gün əvvəl kimlərsə gəlib liftin kir-pasağına bir az əl gəzdirib gediblər. Kimdir bu insanlar? Hansı idarədən gəliblər? Məlum deyil. Həmin naməlum adamların bu cür gözdən pərdə asan "təmir" işləri sakinləri arxayın sala, nəticədə əsas problemi həll olunmamış qalan liftlərdə hər an faciə baş verə bilər.

Lift şaxta boyunca hərəkət etdikdə qapılar yarımçıq bağlanır. Bir dəfə mən özüm liftə ayaq qoymaq istəyəndə qapılar açıq vəziyyətdə lift getdi. Soyuq tər basdı məni! O gündən qızıma və kürəkənimə tapşırdım ki, liftdən istifadə etməsinlər. Bunlar cavandırlar, birtəhər 7-ci mərtəbəyə qalxıb-düşürlər. Bəs 8-ci, 9-cu mərtəbədə yaşayan yaşlı, xəstə, əli uşaqlı sakinlər neynəsin?!

Və nəhayət:

doğrudanmı, potensial faciə ilə üz-üzə qalan 70 ailənin səsini eşidən bir qurum tapılmayacaq?

*Allahyar Eyyuboğlu*
*(allahyar@ayyubov.net <mailto: Allahyar@ayyubov.net>,*
*Tel.: 050 808 51 59; 055 500 72 78)*

# Bu il Samuxda 937 baş heyvan süni yolla mayalandırılıb

***Heyvandarlığın inkişaf etdirilməsi və onun məhsuldarlığının artırılmasına təsir edən faktorlardan biri də heyvanların cinsinin yaxşılaşdırılmasıdır.***

Samux rayonunda kənd təsərrüfatı heyvanlarının cinsinin yaxşılaşdırılması məqsədi ilə iribuynuzlu mal-qaranın süni mayalandırılması uğurla həyata keçirilir. 2024-cü ilin yanvar-iyun aylarında 937 baş iribuynuzlu mal-qara elit törədicilərin toxumları ilə süni mayalandırılmışdır ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 54 baş, və ya 6,1 faiz çoxdur. Heyvanların süni mayalandırılmasından 399 baş cins buzov doğulmuşdur ki, bu da əvvllki ilin müvafiq dövrü ilə müqayisədə 9 baş 2,3 faiz çoxdur. Rayonda mal-qaranın cinsinin yaxşılaşdırılması heyvandarlıq məhsullarının istehsalının artmasına müsbət təsir göstərir.

*Samux Rayon Statistika İdarəsi*

## 5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük Qayıdışın “Ağıllı kənd” konsepsiyası

## “İşğaldan azad olunmuş ərazilərimizdə yaşayış məntəqələri “ağıllı şəhər” və “ağıllı kənd” prinsipinə uyğun qurulur”

***Zəfərdən sonra dərhal Qarabağda bərpa-quruculuq işləri start götürüb. İşğaldan azad edilən ərazilərimizdə sürətlə genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir. “Böyük qayıdış” konsepsiyası çərçivəsində dağılmış şəhərlərin və binaların yenidən qurulması, ”ağıllı kənd”lərin inşası davam edir.***

Ağdam rayonunun Baş Qərvənd kəndində “ağıllı” kəndin inşası nəzərdə tutulur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində işğaldan azad olunmuş ərazilərimizin yeni görkəmdə olması üçün Böyük qayıdışın bir parçası olan ”ağıllı kənd” layihələri tətbiq olunmağa başladı. Bu konsepsiya haqqında dövlət başçısının söylədiyi fikirlər, irəli sürdüyü təşəbbüslər tezliklə öz təsdiqini tapdı. Qısa zaman kəsiyində ilk olaraq Zəngilanın Ağalı kəndi ”ağıllı kənd” olaraq müasir yaşayış məskəninə çevrildi. Bu layihənin tətbiqi onu deməyə əsas verir ki, Ağalıda əhalinin rahatlığının və rifahının yüksək səviyyədə təmin edilməsi üçün informasiya-kommunikasiya texnologiyalarından maksimum istifadə edilir, tele-səhiyyə, e-təhsil və digər elektron xidmətlər üzrə innovasiyalar problemin həllini tezləşdirir.

Əslində, ”ağıllı kənd” layihəsinin tətbiqində əsas məqsəd urbanizasiyanın qarşısını almaqdır. Kənd yerlərində yaşayan insanların həyat səviyyəsi yüksəldikcə onların şəhərə köçmək istəkləri azalır. İlham Əliyev ötən il Ağalıda 200 evin açılışını etdi. Bu gün Ağalı kəndində küçələrin ”ağıllı” işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, günəş panellərinin quraşdırılması kimi müasir şəhərsalma standartları tətbiq olunub. Eləcə də kəndin daimi enerji ilə təmin edilməsi üçün Həkəri çayı üzərində su-elektrik stansiyası inşa edilib. Kənddə dövlət xidmətlərinə əlçatanlığı asanlaşdırmaq məqsədilə ASAN, DOST xidmətləri, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Dövlət Aqrar İnkişaf Mərkəzi mövcuddur.

İkinci ”ağıllı kənd” Füzulinin Dövlətyarlı kəndidir. Bu gün bir-birinə yaxın olan 5 kəndin birgəyaşayışının təmin olunması məqsədilə kənddə işlər tam sürətlə davam etdirilir. Dövlətyarlı böyük kənd olduğu üçün ilkin olaraq burada 450 evin tikintisinə başlanılıb. ”Ağıllı kənd” layihəsi çərçivəsində növbəti yaşayış məntəqəsi Ağdam rayonunun Baş Qərvənd kəndi olacaq. Prezidentin Qarabağ iqtisadi rayonu üzrə xüsusi nümayəndəsi Emin Hüseynovun dediyinə görə, layihə çərçivəsində ərazisi 470 hektar olacaq Baş Qərvəndə birinci mərhələdə 917, növbəti dəfə isə 600 ailənin köçürüləcəyi nəzərdə tutulub.



İqtisadçı Vüqar Bayramov “Unikal” qəzetinə müsahibəsində bildirib ki, işğaldan azad olunmuş ərazilərimizdə yaşayış məntəqələri “ağıllı şəhər” və “ağıllı kənd” prinsipinə uyğun qurulur. Artıq Ağalı kəndində “ağıllı kənd” prinsipinə uyğun olaraq yaşayış məntəqəsi salınıb. Eyni zamanda, digər bölgələrimizdə, o cümlədən Ağdam, Füzuli rayonunun Dövlətyarlı kəndində “ağıllı şəhər” və “ağıllı kənd” prinsipinə uyğun olaraq yaşayış məntəqələrinin inşası həyata keçirilir.

“Təbii ki, “ağıllı şəhər” və “ağıllı kənd” bu gün dünya praktikasında öz təsdiqini tapmış yanaşmadır. Artıq Avropada və bir sıra digər ölkələrdə məhz bu praktikadan istifadə olunur. Həm idarəetmənin çevikliyinin, həm də şəffaflığının artırılması baxımından “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyası çox vacibdir. Bu, eyni zamanda, vətəndaşların kommunal xidmətlərə əlçatanlığını asanlaşdırır. Çünki “ağıllı şəhər” və “ağıllı kənd” prinsipində kommunal, sosial xidmətlərə əlçatanlıq daha yüksək olur. Daha qısa müddətdə sosial xidmətləri daha keyfiyyətli şəkildə əldə etmək imkanları yaranır. Bu, həmçinin fərqli sektorların - sənaye, aqrar sahələrin inkişafı üçün də yaxşı imkanlar yaradır. Ona görə də Azərbaycanın işğaldan azad olunmuş ərazilərində artıq reallaşan “ağıllı kənd”, “ağıllı şəhər” modeli gələcəkdə digər bölgələrimizdə də tətbiq oluna bilər. Bu, bütövlükdə Qafqazda yaşayış məntəqələrinin qurulması və məskunlaşma baxımından yeni və xüsusi bir yanaşmadır”,- deyə müsahibimiz qeyd edib.

Qeyd edək ki, BMT-nin qaydalarına görə “ağıllı şəhər” sistemləri şəhərdə demək olar bütün sahələrdə tətbiq edilməlidir. Burada əsas 3 istiqamət var:

1) İqtisadiyyat - İKT, innovasiya, məşğulluq, ticarət, istehsal, fiziki infrastruktur.

2) Ətraf mühit - havanın tərkibi, su təchizatı, səs-küy, ətraf mühitin keyfiyyəti, biomüxtəliflik, energetika.

3) Cəmiyyət və mədəniyyət - təhsil, səhiyyə, təhlükəsizlik, mənzil, mədəniyyət, sosial qaynayıb-qarışma.

Xatırladaq ki, “Ağıllı və dayanıqlı şəhər”in göstəricilərini BMT 2015-ci ildə müəyyən edib. Qurumun verdiyi ümumiləşdirməyə əsasən ağıllı və dayanıqlı şəhər - informasiya texnologiyalarından istifadə edən innovasiyalı şəhərdir.

Məlumat üçün onu da bildirək ki, bu gün bütün dünyada kənd təsərrüfatında artıq əl əməyindən istifadə minimuma enib, aqrar sektorda daha çox yeni texnologiyalardan istifadə olunur. Sahələrin dərmanlanması dronlar vasitəsilə həyata keçirilir, məhsul yığımı kompüterləşdirilmiş texnikalar vasitəsilə aparılır, su resurslarından qənaətlə istifadə üçün müasir suvarma sistemlərindən istifadə olunur. Təsərrüfat sahələrinin bütün kritik nöqtələrində quraşdırılmış sensorlar torpaq şəraiti, hava və s. haqqında məlumat toplayır və ötürür. Toplanan məlumatlar sistem tərəfindən təhlil edilir və izlənilən obyektin və ya prosesin vəziyyəti barədə nəticələr çıxarılır. Ən əsası bütün bu proseslər bir mərkəzdən idarə edilir.

Əlavə edək ki, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə “Böyük Qayıdışa dair I Dövlət Proqramı”na uyğun olaraq 2026-cı ilin sonuna qədər 34 min 600 ailənin köçürülməsi nəzərdə tutulur. Bu istiqamətdə bərpa ediləcək şəhər, kənd və qəsəbələrin konkret siyahısı təsbit olunub. Layihə çərçivəsində ən önəmli komponentlərdən biri də “ağıllı kənd” və “ağıllı şəhər”lərin tikintisidir. Onlar yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı”, alternativ enerji sahələri kimi mühüm prinsiplər üzərində qurulacaq. Bu isə məskunlaşmanın özünəməxsus yeni modelini təşkil edəcək.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Azərbaycanda internetin qiyməti artdı

***Azərbaycanda genişzolaqlı internet tarifləri üzrə sürət və ödəniş məbləğinə dəyişiklik edilib.***

“Unikal” xəbər verir ki, GPON (Gigabit Passive Optical Network - Gigabit tutumlu Passiv Optik Şəbəkə) tarifləri üzrə təqdim olunan sürətlər 2.5 dəfə (40 Mbit/s internet sürətini 100 Mbit/s-yə, 60 Mbit/s internet sürətini 150 Mbit/s-yə və 100 Mbit/s sürətini isə 250 Mbit/s-yə qədər) artırılıb.

Yeni sürət tariflərində abunəçilər üçün minimal sürət 100 Mbit/s-dən başlayır və hər Mbit/s üçün ödəniş məbləği 0.45 AZN-dən 0.25 AZN-ə endirilib.

Belə ki, abunəçilərə 100 Mbit/s internet üçün 25 AZN, 150 Mbit/s internet üçün 30 AZN, 250 Mbit/s internet üçün 36 AZN qiymət təklif edilir.

## Mynumber.az-da istədiyin nömrəni “SİMA İmza” ilə sifariş et!

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan “AzInTelecom” MMC tərəfindən yaradılmış SİMA yeni nəsil rəqəmsal imza tərəfdaş çevrəsini genişləndirməyə davam edir.***




“SİMA İmza” ilə öz xidmətlərini rəqəmsallaşdıran növbəti qurum “MyGroup Holdinq” MMC olub.

Qeyd edək ki, “SİMA İmza” holdinqə daxil olan və istəyə uyğun mobil nömrələrin satışını həyata keçirən “MyNumber” şirkətinin rəsmi saytına inteqrasiya edilib. İnteqrasiya sayəsində mynumber.az saytından mobil nömrə sifariş edən vətəndaşların şəxsi məlumatlarını doldurmasına ehtiyac yoxdur. Belə ki, “SİMA İmza” sahibi olan hər kəs mynumber.az saytının yuxarı sağ küncündə yerləşdirilən SİMA bölməsinə klikləyib QR kodu skan etməklə məlumat bölməsini avtomatik doldurmuş olur. Bundan sonra isə nömrə sifarişini bir toxunuşla reallaşdırmaq və vətəndaşın adına rəsmiləşdirmək mümkündür.

Qeyd edək ki, “SİMA İmza”nı əldə etmək üçün heç yerə getməyə ehtiyac yoxdur. Sadəcə, mobil telefona “SİMA İmza” tətbiqini yükləmək kifayətdir. Tətbiqdən istifadə vətəndaşlar üçün tam pulsuzdur. SİMA yeni nəsil rəqəmsal imza ilə bağlı daha ətraflı məlumatı www.sima.az saytından və “157” Zəng Mərkəzi ilə əlaqə saxlayaraq əldə etmək olar.

28_27 IYUI-QARA.qxd 8/15/2024 9:27 PM Page 13



# Yüksək qan təzyiqi olan insanlarda bu xəstəlik yaranır



***Yeni Cənubi Uels Universitetinin Avstraliya) alimləri 60 yaşdan yuxarı yüksək qan təzyiqi olan insanların Alzheimer xəstəliyinə tutulma riskinin artdığını müəyyən ediblər.***

"Unikal" xəbər verir ki, tədqiqatın nəticələri "Neurology" jurnalında dərc olunub.

Alimlər qeyd ediblər ki, yüksək qan təzyiqi insult və serebrovaskulyar xəstəliklərin əsas səbəblərindən biridir. Bəzi tədqiqatlar da göstərmişdir ki, hipertoniya dərmanlarının qəbulu ümumiyyətlə demensiyanın inkişaf ehtimalını azaldır. Bununla belə, qan təzyiqinin Alzheimer xəstəliyinin inkişaf riskinə təsiri hələ də zəif başa düşülür.

Bu bilik boşluğunu doldurmaq üçün tədqiqatçılar Alzheimer xəstəliyi ilə müxtəlif qan təzyiqi ölçüləri arasındakı əlaqəyə baxan əvvəlki tədqiqatların meta-analizini aparıblar. Ümumilikdə tədqiqatçılar 13 ölkədən orta yaş həddi 72 olan 31 250 iştirakçının məlumatlarını təhlil ediblər.

Ümumi iştirakçıların 9%-i müalicə olunmamış hipertoniyaya malik idi, 51%-i dərman qəbul edirdi, 36%-i hipertoniyadan əziyyət çəkirdi və 4%-i təyin olunmamış kimi təsnif edildi. Nəticələri yaş, cins və təhsil səviyyəsinə görə tənzimlədikdən sonra aydın oldu ki, müalicə olunmamış yüksək qan təzyiqi olan insanlarda hipertansiyonu olmayanlara nisbətən Alzheimer xəstəliyinə tutulma riski 36%, dərman qəbul edənlərə nisbətən isə 42% yüksəkdir.

***Gülayə Mecid***

# İstilik insan davranışına necə təsir edir?

***İnsan orqanizmi həddindən artıq istilərə uyğunlaşmayıb. Bədənin daxili özünü soyutma mexanizmi, tərləmə, temperatur həddindən artıq yüksəldikdə və hava rütubətli olduqda təsirsiz olur.***

"Unikal" istiliyin insan davranışına olan təsirlərini təqdim edir: İsti havalarda gün vurması baş verir ki, onun nəticəsində çoxlu orqan çatışmazlığı baş verə, bu da əlilliyə və ya hətta ölümə səbəb (böyrəklər, ürək və beyin üçün mənfi təsirlər) ola bilər. Mütəxəssislərin fikrincə, havanın rütubəti ilə 35 ▪ C temperaturdur, tempratur bu dərəcəni keçdikdə tərin buxarlanması dayanır və bədən soyumağı dayandırır, nəticədə az miqdarda su qəbul edən ən sağlam insan da bir neçə saat ərzində ölür.

Araşdırmalar göstərir ki, istilik əslində psixi sağlamlıq problemlərini daha da pisləşdirir. Beləliklə, həddindən artıq yüksək temperatur qıcıqlanma səviyyəsinin artması və depressiya əlamətləri ilə əlaqələndirilir. Bundan əlavə, istilik vurması beyin üçün ciddi təhlükə yaradır, bunu yaşayan insanların 10-28% -i uzunmüddətli koqnitiv və ya nevroloji problemlər yaşayır.

İstilik təsdiqlənmiş psixi problemləri olan xəstələr üçün də olduqca təhlükəlidir. Artan temperatur və artan UV radiasiya səviyyələri bipolyar pozğunluqdan əziyyət çəkən insanlarda residivləri tetikleyebilir. Bundan əlavə, yüksək hərarət şizofreniya əlamətlərinə, müxtəlif əhval pozğunluqlarına səbəb olur və narahatlığı artırır. İsti yay aylarında insanların məhsuldarlıq və idrak qabiliyyəti aşağı düşür.

Bu cür əlamətlər istidə bədən ehtiyatlarının fərqli şəkildə paylanması ilə əlaqədardır. Enerji beyin və idrak funksiyalarını saxlamaq əvəzinə bədəni soyutmağa sərf olunur. Nəticədə idrak və intellektual fəaliyyətlərdə yavaşlamalar olur.

***Zərifə Nağıyeva***

# Azərbaycanda taksi istifadəçilərinin sayı artıb

***Bu ilin yanvar-iyul aylarında Azərbaycanda minik taksiləri ilə 47 184,6 min sərnişin daşınıb ki, bu da illik müqayisədə 3,7% çoxdur.***

Dövlət Statistika Komitəsindən "Unikal"a verilən məlumata görə, ötən ilin müvafiq dövründə ölkədə minik taksiləri ilə 45 501 min sərnişin daşınıb.

Qeyd edək ki, bu ilin yanvar-iyul aylarında Azərbaycanda nəqliyyat sektorunda daşımaların həcmində xüsusi çəkisi ən böyük olan avtomobil nəqliyyatı ilə 994 587,9 min sərnişin daşınıb, bu da illik müqayisədə 9,1% artım deməkdir.

# Hüseyn Abdullayev Müalicə Müəssisəsinə köçürüləcək - Məhkəmə qərar verdi

***Cinayət yolu əldə edilmiş 5,5 milyon manat pulu leqallasdirmaqda ittiham olunan keçmiş deputat Hüseyn Abdullayevin məhkəməsi başlayıb.***

"Unikal"ın məlumatına görə, Cinayət Məcəlləsinin 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş pulların leqallaşdırılma) maddəsi ilə ittiham olunan Hüseyn Abdullayevin məhkəmə prosesi hakim Azər Tağıyevin sədrliyi ilə keçirilib.

Xatırladaq ki, Hüseyn Abdullayevi 3 vəkil - Ceyhun Yusifov, Şəhla Hümbətova və Günay İsmayılova müdafiə edir. İlk olaraq təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Hüseyn Abdullayev bildirib ki, ittiham aktını almayıb, hamçinin zəhərləndiyini və bunula bağlı səhhətində əziyyət çəkir, ona təqzyuq iynəsi vurulub və adını bilmədiyi dərman həbi verilib. O gündən ürək ağrılarından, boğulmalardan əziyyət çəkir ayaq üstə dura bilmədiyindən vəkillərin görüşünə də gələ bilmir. Avqustun 8-də anası ilə görüşdən kameraya kalyaskada gedib. Müalicə Müəssisəsinin həkimi Vüsalə Məmmədova Hüseyn Abdullayevi kardioqrama edərək 2 avqustda infarkt keçirməsi ilə bağlı rəy verib. O zamandan iş heç bir xüsusi tibbi yardım ala bilmir. Ədliyyə Nazirliyi Tibb Baş İdarəsi Hüseyn Abdullayevin Müalicə Müəssisəsinə köçürülməsindən imtina edir. Həmçinin qanunda var ki, həbs edilən şəxs öz hesabına özəl tibbi klinikada müalicə ala bilər.

Dövlət ittihamçısı Rauf Maverdi: "Video konfrans formasında keçirilsin və hakimlər BİT-in zalında məhkəmə prosesini aparsınlar.

Şəhla Hümbətova isə Hüseyn Abdullayevin həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi ilə bağlı vəsatət verdi: "Cəzanın bitməsinə 40 gün qalmış yeni cinayət işi başlayıb. Avropa Məhkəmsi isə bu isə artıq siyasi motiv kimi baxır və 18-ci maddə ilə kommunikasiya başlayıb.

Ceyhun Yusifov isə dustağın sağlam saxlanılmasının Penitensiar Xidmətin birbaşa vəzifə borcu olduğunu məhkəmənin nəzərinə çatdırdı. Belə ki, bunula bağlı Avropa Penitensiar Partiyasının müvafiq bəndləridə var. Daha sonra vəkil Günay İsmayılova qeyd etdi ki, əgər Hüseyn Abdullayevin ciddi problemlərinin yarandığını qeyd etdi. Bu zaman vəkillərlə Hüseyn Abdullayev arasında ittiham aktının alınması ilə bağlı ziddiyət yarandı. Sonda vəkillərin təzyiqi ilə Hüseyn Abdullayev ittiham aktını aldığını qeyd etdi.



Sonra vəkil Şəhla Hümbətova təqsirləndirilən şəxsin məhkəmə prosesi gedən zaman vəkillərin yanında oturması ilə bağlı vəsatət verdi. Dövlət ittihamçısı Rauf Malışov vəkilin vəsatətinin təmin olunmamasını istədi. Hakimlər isə öz aralarında müşavirə etdikdən sonra həsrətin qəbul olunması ilə bağlı qərar çıxartdılar. Hüseyn Abdullayev isə vəkillərin yanında oturmaqdan imtina etdi.

Daha sonra vəkil Şəhla Hümbətova Hüseyn Abdullayevin səhhəti ilə bağlı danışdı: "Hüquqlarını müdafiə etdiyim şəxs təqzyuliq xəstəliyindən ev bu gün infarktdan ölərsə onun məsuliyyətini heç kim üzərinə götürməyəcək. Həbslə bağlı vəsatətə Rauf Malışov münasibət bildirərək qeyd etdi ki, həbsin ev dustaqlığı ilə əvəz olunmasına heç bir əsas yoxdur. Məhkəmənin konfranslar keçirilməsini isə məhkəmənin səlahiyyətinə buraxdı.

Məhkəmənin video konfrans formasında keçirilməsi ilə bağlı Ceyhun Yusifov vəsatət lışov vəsatətə münasibət bildirərək qeyd etdi ki, Müalicə Müəssisəsində kifayət qədər ixtisaslı həkimlər var: "Onlar Hüseyn Abdullayevi tam həkim nəzarətində saxlayırlar, müalicə edirlər. Hazırda Hüseyn Abdullayevin Müalicə Müəssisəsinə köçürülməsinə heç bir ehtiyac yoxdur".

Həmçinin Ceyhun Yusifovda qeyd etdi ki, BİT-in heç bir ixtisaslı həkimi yoxdur. Vüsalə Məmmədovanın verdiyi rəy kifayət qədər əsaslıdır. Özəl klinikaya yarım saatlıq aparıla bilər öz hesabına sonra qaytarıla bilər saxlanıldığı yerə. Prokurorun çıxışında qərəz var.

Digər vəkil Günay İsmayılova da müvəkkilinin səhhətinə münasibət bildirərək onun mütləq EXO müayinə olunmasının vacibliyini qeyd etdi.

Hakimlər Hüseyn Abdullayevin Müalicə Müəssisəsinə köçürülməsi və məhkəmənin video konfrans formatında keçirilməsi ilə bağlı vəsatətlərin təmin etdi.

Xatırladaq ki, cinayət işinin istintaqı Baş Prokurorluq tərəfindən aparılıb.

Qeyd edək ki, Hüseyn Abdullayev 2018-ci ildə həbs edilib. O, külli miqdarda maddi ziyan vurmaqla dələduzluqda ittiham edilərək 6 il müddətinə azadlıqdan məhrum edilmişdi.

***Seymur Əli***

28_27 IYUl-QARA.qxd 8/15/2024 9:27 PM Page 14



# Dələduzluğa qarşı polis kəskin mübarizə aparır - Bəs vətəndaş nə etməlidir?

***Azərbaycanda vətəndaşlara qarşı dələduzluq hallarına qarşı kəskin mübarizə aparılır, həbslər var. Heç bir vətəndaş ictimai inamsızlıq yaradan bu hallardan sığortalanmayıb.***

Dələduzlar vətəndaşların bu və ya digər formada etimadını qazanaraq müxtəlif yollarla asan və qanunsuz qazanc əldə etməyin yollarını axtarırlar. Belələrinə qarşı polis əməkdaşlarının fəaliyyəti kifayət qədər gücləndirilib və təkcə ötən ayın statistikasının təhlilləri vəziyyətin Daxili İşlər Nazirliyinin nəzarətində olduğunu təsdiqləyir.

"Unikal"ın apardığı araşdırmaya əsasən, son həftələrdə (iyul ayı və avqustun ilk yarısı ərzində) nə az, nə çox, 130 dələduzluq faktı müəyyənləşdirilib və bu cür qanunsuz əməllərə qol qoyan çox sayda şəxs saxlanılaraq cinayət məsuliyyətinə cəlb edilib. Həmin dələduzluq faktları arasında sosial şəbəkələrdə vətəndaşları aldadanlar da, şəxsi həyata müdaxilə yolu ilə kiminsə şəkillərini internet məkanında paylaşaraq nalayiq ifadələr yazılması və silinməsi müqabilində ondan hədə-qorxu ilə pul tələb edənlər də, yaxın qohumlarının müalicəsinə təcili pul lazım olması adı ilə yaşlı nəslin nümayəndələrinə xaricdən ev telefonları vasitəsi ilə zənglər edib onların külli miqdarda pul vəsaitlərinin ələ keçirənlər də var.

Hətta bəzi cinayətkar ünsürlər bir az da irəli gedərək özlərini müxtəlif yuxarı vəzifəli, yaxud yüksək rütbəli şəxslər kimi təqdim edərək insanları soymaqdan da çəkinmirlər. Sadə bir nümunə: yaxın günlərdə saxta general mundirli şəxs - Babazadə Elvin Firudin oğlu polis əməkdaşları tərəfindən saxlanıldı. Məlum oldu ki, o, özünü hansısa xüsusi idarənin rəisi kimi təqdim edib, 100-dən artıq orden-medalın olmasını əsas gətirərək vətəndaşları aldadıb. Təkcə cari ilin aprel-may aylarında ayrı-ayrı zərərçəkənlərə müxtəlif vədlər verərək onlara 61700 manat zərər vurub.

Yeri gəlmişkən, bəhs etdiyimiz dövrdəki faktlardan başqa bir məqam da aydın olur: Dələduzların qurbanına çevrilən vətəndaşların itirdikləri məbləğlər kifayət qədər böyükdür. Məsələn, iyulda keçirilən əməliyyat zamanı paytaxt ərazisində ahıl vətəndaşlara qarşı dələduzluğa cəlb edilən daha bir şəxs saxlanılıb və məlum olub ki, o, 28 min, 9 min və 6 min manat olmaqla ümumilikdə 3 vətəndaşa 43 min manat maddi ziyan vurub. Yaxud, yenə ötən ay bu dəfə Sumqayıt şəhər sakini olan bir nəfərin aldadılaraq böyük məbləğdə - 21500 manat pulunun alınması barədə məlumat alan polis əməkdaşlarının keçirdikləri tədbirlərlə dələduzluq əməlində şübhəli bilinən şəxs saxlanılıb.




İndi isə gəlin başqa bir statistikaya göz ataq. Belə ki, avqustun ilk ongünlüyündə polisin keçirdiyi əməliyyatlar nəticəsində saxlanılma faktları Azərbaycanda dələduzluğun bir qrup tərəfindən faktiki olaraq "həyat fəaliyyətinə" çevrildiyini və polisin belə şəxslərə qarşı tam səfərbər olunduğunu söyləmək üçün ciddi əsaslar verir. Gəlin rəqəmlərlə tanış olaq:

- polis əməkdaşlarının avqustun 1-də keçirdikləri əməliyyat tədbirləri ilə dələduzluğa görə axtarışda olan 3 nəfər saxlanılaraq istintaqa təhvil verilib;
- polis əməkdaşlarının avqustun 2-də keçirdikləri əməliyyat tədbirləri ilə dələduzluğa görə axtarışda olan 7 nəfər saxlanılaraq istintaqa təhvil verilib;
- polis əməkdaşlarının avqustun 6-da keçirdikləri əməliyyat tədbirləri ilə dələduzluğa görə axtarışda olan 10 nəfər saxlanılaraq istintaqa təhvil verilib;
- polis əməkdaşlarının avqustun 7-də keçirdikləri əməliyyat tədbirləri ilə dələduzluğa görə axtarışda olan 6 nəfər saxlanılaraq istintaqa təhvil verilib;
- polis əməkdaşlarının avqustun 8-də keçirdikləri əməliyyat tədbirləri ilə dələduzluğa görə axtarışda olan 13 nəfər saxlanılaraq istintaqa təhvil verilib;

Polis orqanlarının dələduzluqla mübarizəsi yalnız əməliyyat tədbirləri yekunlaşmır; eyni zamanda DİN mütəmadi şəkildə, az qala, günaşırı dələduzluq əməlləri ilə bağlı cəmiyyəti xəbərdar edir, xaricdən bank hesablarının, digər şəxsi məlumatların ələ keçirilməsi məqsədilə edilən naməlum zənglərdən tutmuş müxtəlif dövlət qurumlarının adından sui-istifadəyə qədər ən müxtəlif dələduzluq üsulları barədə cəmiyyəti məlumatlandırır, maarifləndirir. Lakin bütün bunlara baxmayaraq təəssüf ki, hələ də bir çox vətəndaşlar asan və qanunsuz qazanc ovuna çıxan belə cinayətkarların "toruna" düşürlər.

Digər tərəfdən isə kənar müşahidələr əsasında adama bəzən belə gəlir ki, bütün bu cinayətkar ünsürlər hansısa nəhəng dələduzluq şəbəkəsinin üzvləridir. Ola bilsin, onlar arasında birbaşa əlaqə, bir-birləri ilə bağlılıq yoxdur, lakin bu şərti şəbəkənin cəmiyyətdə ortaq bir fikir formalaşdırmağa çalışırlar ki, guya ölkədə dələduzluğa qarşı ciddi mübarizə aparılmır və cinayətkarların vətəndaşları aldatmaq, təhdid və şantaj etmək yolları ilə pullarını ələ keçirmək üçün münbit zəmin var. Lakin elə yazımızda yer verdiyimiz son ayyarımlıq statistikadan, konkret rəqəmlərdən hər şey göz önündədir.

Aydın məsələdir ki, məlum cinayətkar ünsürlərin özlərinə xas şəkildə belə bir saxta rəy formalaşdırmaqda konkret niyyətləri var: Polisi ictimai qınaq hədəfinə çevirməyə çalışmaq, bununla da polis və vətəndaş arasındakı etimadı mümkün olduğu qədər zəiflədərək öz çirkin planlarını həyata keçirmək üçün daha rahat imkanlar qazanmaq.

Hərçənd, bu kirli niyyətin elə niyyət olaraq da dələduzların gözündə qalacağına şübhə yoxdur, ancaq vətəndaşlar da dələduzlara qarşı həssaslıqlarını artırmalı, DİN-in xəbərdaredici-maarifləndirici açıqlamalarına diqqətlə yanaşmalı, asan və qanunsuz qazanc əldə etməyi qarşılarına hədəf qoyan cinayətkar şəbəkənin qurbanına çevrilmək üçün hüquq-mühafizə orqanları ilə əməkdaşlığı gücləndirməlidirlər. Yəni yalnız polislərin öz üzərinə düşən vəzifəni yerinə yetirməsi ilə bu həyati problemin kökündən həllinə ümid etmək azdır, eyni zamanda biz vətəndaş olaraq həssaslığımızı və ehtiyatkarlığımızı artırmaqla meydanı dələduzlara dar edə bilərik.

***Seymur Əli***




## Ağsu rayonunda 2024-cü ilin yanvar-iyun aylarında rabitənin inkişafı

***Bu sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən 2024-cü ilin yanvar-iyun aylarında 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 45,2 faiz artaraq 531,7 min manat təşkil etmişdir.***

Əhaliyə göstərilmiş xidmətlərin dəyəri 568,3 min manat (ƏDV və aksizlər daxil olmaqla) olmaqla 2023-cü ilin müvafiq dövrünə nisbətən 55,3 faiz artmışdır.

Xidmətlərin ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 99,4 faiz təşkil etmişdir.

***Ağsu rayon Statistika İdarəsinin baş məsləhətçisi İkram Rzayev***

## Ticarətin göstəriciləri

***2024-cü ilin yanvar-iyun aylarında pərakəndə ticarət şəbəkələrində istehlakçılara 99170,5 min manatlıq məhsul satılmış, 51696,3 min manatını (52,1 faiz) ərzaq məhsulları, içkilər və tütün məmulatları, 47474,2 min manatını (47,9 faiz) qeyri-ərzaq malları təşkil etmişdir.***

2023-cü ilin müvafiq dövrünə nisbətən pərakəndə ticarət dövriyyəsi müqayisəli qiymətlərlə 0,2 faiz azalmış, o cümlədən, ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 24,9 faiz azalmış, qeyri-ərzaq malları üzrə isə 56,6 faiz artmışdır.

Ağsu rayon Statistika İdarəsinin baş məsləhətçisi Leyla Cəbrayılova

## Əməkhaqqının səviyyəsi

***2024-cü ilin yanvar-may aylarında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 622,9 manat, həmçinin dövlət sektorunda 684,4 manat, qeyri-dövlət sektorunda 526,1 manat təşkil etmiş, 2023-cü ilin müvafiq dövrünə nisbətən rayon üzrə 3,4 faiz, qeyri-dövlət sektoru üzrə 10,2 faiz artmışdır.***

İqtisadiyyatın ayrı-ayrı sahələrində işləyənlərin orta aylıq əməkhaqqı rayon göstəricisindən çox olmuş və emal bölməsində 682,1 manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində 1294,5 manat, maliyyə və sığorta fəaliyyəti sahəsində 1271,9 manat, dövlət idarəetməsi və müdafiə; sosial təminat sahəsində 851,7 manat, səhiyyə və sosial xidmətlər göstərilməsi bölməsində 779,4 manat, digər sahələrdə xidmətlərin göstərilməsi bölməsində 1413,7 manat təşkil etmişdir.

***Ağsu rayon Statistika İdarəsinin rəis müavini Cəlal Məmmədov***

28_27 IYUl-QARA.qxd 8/15/2024 9:27 PM Page 15



## "Bu yol hər an Azərbaycanın nəzarətinə keçə bilər" - Erməni deputat



***Azərbaycan artıq Kirants və qonşu kəndlərdə məskunlaşıb.***

"Unikal" xəbər verir ki, bu barədə erməni deputat Qarnik Danielyan açıqlayıb.

"Ermənistan-Gürcüstan dövlətlərarası avtomobil yolu hər an Azərbaycanın nəzarətinə keçə bilər. Kirants sakinlərinə nə qədər kompensasiya verildiyi barədə sorğu göndərmişəm, lakin onlar məlumatın "məxfi" etiketi altında olduğunu bildirərək buna məlumat verməkdən imtina ediblər", - deyə deputat Paşinyan rejimini tənqid edib.

***Ağarza Elçinoğlu***

## Pakistanda bombalı hücum: 1 nəfər ölüb, 10 nəfər yaralanıb

***Pakistanın Bəlucistan əyalətinin mərkəzi Kvettada hotelin qarşısında insanlara əl qumbarası ilə hücum edilib.***

"Unikal" xəbər verir ki, hücum nəticəsində 1 nəfər ölüb, 10 nəfər yaralanıb. Səlahiyyətlilər yaralıların müalicə altına alındığını bildiriblər.

Qeyd edək ki, əl qumbaralı aksiya xalqın ölkənin müstəqilliyinin ildönümünü qeyd etdiyi günlərdə Kvettada həyata keçirilən üçüncü hücum olub.

***Zərifə Nağıyeva***

## Ermənistan Rusiyaya yeni səfir təyin edib

***Ermənistan Milli Assambleyasının keçmiş deputatı Qurgen Arsenyan Rusiyaya səfir təyin edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan Prezidenti Vaaqn Xaçaturyan sərəncam imzalayıb.

"Qurgen Arsenyan Ermənistanın Rusiya Federasiyasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib", - sərəncamda qeyd olunub.

## "Ukrayna bunu Qərbdən gizli saxlayırdı" - KİV

***"Ukrayna Rusiyaya hücum planlarını Kursku vurana qədər Qərbdən gizli saxladı".***

"Unikal" xəbər verir ki, bu barədə "Bloomberg" nəşri məlumat yayıb.

Nəşr öz mənbələrinə istinad edərək yazır ki, Ukraynanın qərbli müttəfiqləri onun Kursk bölgəsinə hücumunun təfərrüatlarını tam sürətlə davam edənə qədər bilmirdilər.

Ukraynalılar avqustun 6-da Rusiyaya qurudan hücuma başlayıblar. Hücum Ukraynanın Qərb tərəfdaşlarına da təsir edib.

Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, onun qoşunları Rusiyanın Kursk vilayətindəki 74 yaşayış məntəqəsinə nəzarət edir, Ukrayna Silahlı Qüvvələrinin baş komandanı Aleksandr Sırski isə Ukraynanın təxminən 600 kvadrat kilometr əraziyə sahib olduğunu açıqlayıb.

Bu arada, Rusiya Federasiyasının Kursk və Ukrayna ilə həmsərhəd olan Belqorod vilayətinin qubernatoru fövqəladə vəziyyət elan edib.

***Gülayə Mecid***

## "İrəvan Minsk prosesinin davam etdirilməsi..." - Ermənistan XİN

***İrəvan Minsk prosesinin davam etdirilməsi məsələsini ilk növbədə sülh müqaviləsinin imzalanması kontekstində nəzərdən keçirə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan XİN açıqlayıb.

"Ermənistan tərəfi Minsk prosesinin davam etdirilməsi məsələsinə münasibətlərin hərtərəfli tənzimlənməsi və ilk növbədə sülh müqaviləsinin bağlanması kontekstində baxa bilər", - deyə nazirlik yerli KİV-in sorğusuna cavabında bildirib.

***Ağarza Elçinoğlu***

## Şimali Koreya illər sonra sərhədlərini açır

***Dünyanın ən qapalı ölkələrindən biri olan Şimali Koreya illər sonra qapılarını xarici turistlərin üzünə açacaq.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, KXDR təxminən beş il ərzində COVID-19 səbəbiylə sərhədlərini bağlı saxlayıb. Lakin bildirilir ki, ölkə dekabr ayında sərhədləri xarici turizmə yenidən açmağı planlaşdırır.

Çində fəaliyyət göstərən "KTG Tours" şirkəti də "Facebook" səhifəsindən açıqlama verərək, "Turistlərin bu qış Samjiyona (Paektu dağ bölgəsi) gedə biləcəyi deyilir. Dəqiq tarixlər təsdiqlənməyib. Hələlik



yalnız Samjiyon rəsmi olaraq açıqlanıb. Lakin Pxenyan və digər yerlərin də açılacağını düşünürük", - bildirib.

Şimali Koreyanın Çinlə dağlıq şimal sərhədi yaxınlığında yerləşən Samjiyon ölkədə müqəddəs sayılan Paektu dağına açılan qapıdır və rəsmi rəvayətlərə görə keçmiş Şimali Koreya lideri Kim Çen İrin doğulduğu yerdir.

Onun oğlu və varisi Kim Çen In şəhərdə mənzillər, hotellər və xizək kurortundan ibarət nəhəng layihəni həyata keçirmək üçün böyük vəsait ayırıb. Şəhər "sosialist utopiyası" kimi dizayn edilib.

Şimali Koreya koronavirus pandemiyasından qorunmaq üçün 2020-ci ilin əvvəlində sərhədlərini bağlayıb və hətta öz vətəndaşlarının da illərlə ölkəyə girişinin qarşısı alınıb.

***Gülayə Mecid***

## Hindistan Rusiyadakı vətəndaşlarına təxliyə çağırışı etdi

***Hindistan Rusiyanın Bryansk, Belqorod və Kursk vilayətlərində yaşayan vətəndaşlarını təxliyə etməyə çağırır.***

"Unikal" xəbər verir ki, bu barədə Hindistanın Moskvadakı səfirliyinin saytında qeyd olunub.

Onlara müvəqqəti olaraq Rusiyanın digər bölgələrinə köçmək tövsiyə edilib: "Bryansk, Belqorod və Kursk vilayətlərində baş verən son təhlükəsizlik insidentlərini nəzərə alaraq, Hindistan vətəndaşlarına lazımi ehtiyat tədbirlərini görmələri və müvəqqəti olaraq bu bölgələrdən kənara çıxmaları tövsiyə olunur".

***Ağarza Elçinoğlu***



## "Netanyahu Qəzzada atəşkəsdən imtina edərsə..."

***ABŞ Prezidenti Co Bayden Qəzza zolağında girovların qaytarılması və atəşkəslə bağlı danışıqlardan əl çəkəcəyi təqdirdə baş nazir Benyamin Netanyahunu açıq şəkildə günahlandıracaq.***

"Unikal" xəbər verir ki, bu barədə "Haaretz" mənbələrə istinadən məlumat yayıb .

"Bayden administrasiyası İsrailə və radikal Fələstinin HƏMAS hərəkatına əlavə danışıqlar olmadan bəli və ya xeyr təklifi verə bilər. Netanyahu "yox" desə, Bayden ilk dəfə danışıqların uğursuzluğuna görə açıq



şəkildə İsrailin baş nazirini günahlandıracaq", - qəzet yazır.

Nəşr qeyd edir ki, Vaşinqton HƏMAS ilə razılaşmaya etiraz edən hökumətdəki radikal sağçılar, yəni milli təhlükəsizlik naziri İtamar Ben-Qvir və maliyyə naziri Bezalel Smotriçə qarşı "müəyyən addımlar ata bilər".

Avqustun 9-da Qətər, Misir və ABŞ liderləri birgə bəyanatda Qəzza zolağında atəşkəs və girovların azad edilməsi üçün yekun təklifi təqdim etməyə hazır olduqlarını bildiriblər. Onlar İsrail və HƏMAS-ı "bütün qalan boşluqları doldurmaq və heç bir gecikmə olmadan sazişin icrasına başlamaq" üçün avqustun 15-də Doha və ya Qahirədə danışıqları bərpa etməyə çağırıblar.

***Gülayə Mecid***

## "Seçkilərdə məğlub olsam, bu ölkəyə qaçacam" - Donald Tramp

***Donald Tramp seçkilərdə məğlub olacağı təqdirdə Venesuelaya qaçacağını bildirib.***

"Unikal" xəbər verir ki, Tramp bu fikri yaxın günlərdə İlon Mask ilə müsahibəsi zamanı deyib. O, "Əgər bu seçkidə qorxulu bir şey olarsa, növbəti dəfə Venesuelada görüşərik",- deyə bildirib.

Tramp demokrat namizəd Kamala Harrisin seçkilərdə qalib gəlməsi ssenarisinin Venesueladakı kriminal mühitdən qat-qat təhlükəli ola biləcəyini qeyd edib.

***Zərifə Nağıyeva***

## Ukrayna Rusiyanın bu şəhərini tam nəzarətə götürüb?

***Kursk vilayətinin Sudja şəhəri Ukrayna Silahlı Qüvvələrinin (AFU) tam nəzarəti altında deyil.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Hərbi-Siyasi İdarəsinin rəis müavini, Axmat xüsusi təyinatlılarının komandanı, general-mayor Aptı Alaudinov bildirib.

Qeyd edək ki, Ukrayna KİV-ləri Sudja şəhərinin tamamilə Ukrayna SQ-nın nəzarətində olduğunu yazıb.

***Gülayə Mecid***

28_27 IYUl-QARA.qxd 8/15/2024 9:27 PM Page 16



# AFFA 4 klubu cərimələdi

***AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib.***




"Unikal" milli assosiasiyanın rəsmi saytına istinadən xəbər verir ki, iclasda Premyer Liqanın yeni mövsümünün II turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.

"Qarabağ"la oyunda 4 futbolçusu sarı vərəqə aldığına görə "Kəpəz" 700 manat cərimələnib. Gəncə təmsilçisinin üzvü Elmir Tağıyev ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun cəzalanıb, bu, klubu 500 manat xərcə salıb. Azarkeşlər tərəfindən kütləvi şəkildə hakimlərin ünvanına təhqiramiz ifadələr səsləndirildiyinə və bu hal cari mövsümdə ilk dəfə yaşandığına görə "Kəpəz"ə xəbərdarlıq edilib.

"Araz-Naxçıvan" "Şamaxı" ilə matçda hesab tablosu işləmədiyinə görə 500 manat cərimələnib.

"Səbail"in 5 futbolçusunun "Neftçi" ilə görüşdə sarı vərəqə alması Bakı təmsilçisini 700 manat ziyana salıb. "Neftçi" qarşılaşma bitdikdən sonra stadionda azarkeşləri iğtişaş törətdiyinə görə 4000 manat ödəyəcək. Komandanın futbolçusu Ervin Koffi azarkeşlərə kənar əşya atdığına görə 2 oyun cəzalanıb, klubu 2000 manat cərimə edilib.

"Sumqayıt"la oyunda "Turan Tovuz"un 4 futbolçusunun sarı vərəqə alması bölgə təmsilçisinin 700 manat cərimələnməsinə səbəb olub.

# "Qarabağ" polşalı qapıçının transferini açıqladı

***"Qarabağ" klubu növbəti transferini reallaşdırıb.***

"Unikal" xəbər verir ki, qapıçı Mateuş Koxalski heyətə cəlb edilib. Uzun sürən danışıqlar nəticəsində Polşa təmsilçisi "Stal Mielets"lə razılıq əldə olunub.

Klubla 24 yaşlı polşalı qolkiper arasında "3+1" illik müqavilə imzalanıb. O, "Stal Mielets"in heyətində keçirdiyi ötən mövsümdə Polşa çempionatının ən yaxşı qapıçısı adına layiq görülüb.

Koxalski 2022-ci ilin yayından "Stal Mielets"in şərəfini qoruyub. O, bunadək "Legionoviya Legionovo", "Radomyak Radom" və "Legiya"da (Varşava) forma geyinib.

Qeyd edək ki, Mateuş Koxalski bu ilin iyununda Polşanın əsas millisinin AVRO-2024-ə hazırlıq prosesinə dəvət alıb və təlim-məşq toplanışında iştirak edib. O, bunadək U-16, U-17, U-18 və U-19 milli komandalarında da çıxış edib.



# "Araz-Naxçıvan"ın ÇL üçün heyəti

***UEFA Çempionlar Liqasının ilkin mərhələsində çıxış edəcək "Araz-Naxçıvan" heyətlə bağlı yekun siyahını UEFA-ya göndərib.***

"Unikal" Azərbaycan Futzal Federasiyasına istinadən xəbər verir ki, 15 nəfərlik siyahıda 3 qapıçı yer alıb.

Qapıçılar: Emin Kürdov, Kamran Hacıyev, Vladislav Reznov

Oyunçular: Xəzər Ağalızadə, Amadeu, Kənan Manafov, Marko Prşiç, Ülvi Əliyev, Emil Həsənzadə, Lazar Milosavljeviç, Kadinho, Yaniç Aleksandar, Giovanni Valerio, Caique Aledes De Oliveyra, İaqo Henrique



Qeyd edək ki, Kamran Hacıyev, Kənan Manafov və İaqo Henrique "Baku Fire" klubundan icarəyə götürülüblər. Onlar Çempionlar Liqası matçlarında "Araz-Naxçıvan"a kömək edəcəklər.

Təmsilçimiz avqustun 21-də "Sparta Belfats" (Şimali İrlandiya), ertəsi gün Estoniya çempionu "Sillamae Silla", avqustun 24-də isə İsveçin "Uddevalla" klubu ilə qarşılaşacaq. Yalnız qrup liderləri əsas mərhələyə vəsiqə qazanacaq.

# Ançelotti UEFA Superkubokunu qazanmasından danışdı

***"Real"ın baş məşqçisi Karlo Ançelotti komandasının UEFA Superkubokunun qalibi olması haqda danışıb.***

QOL.az xəbər verir ki, Madrid təmsilçisi ötən gecə "Atalanta"ya 2:0 hesabı ilə qalib gələrək kuboka yiyələnib: ?"Bu gecəni yaşadığım qürur duyuram. Əzmkarlıq, mübarizə və qələbə... İlk hissə bizim üçün bir az çətin oldu, çünki "Atalanta! güclü pressinq etdi və müdafiədə çox yaxşı oynadı. İkinci hissədə oyun bir az açıldı, italyanlar yoruldu, daha çox şansımız oldu. Boşluqlar yarandıqda Rodrigo, Vinisius və Mbappe çox təhlükəli olur. Kilian çoxlu qol vurmaq üçün tələb olunan bacarıqlara malikdir. Bir həftə əvvəl gələn futbolçular yaxşı formada idilər. Mən bunu yüksək qiymətləndirirəm. Biz çalışmalıyıq, hər oyunda mübarizə və rəqabət aparmalıyıq". Qeyd edək ki, "kral klubu" tarixində 6-cı dəfə UEFA Superkubokunu qazanıb.

# "Səbail-2"yə texniki məğlubiyyət verildi

***Azərbaycan çempionatının Əvəzedicilər liqasının I turunun "Zirə-2" - "Səbail-2" oyununun nəticəsi ləğv edilib.***



"Unikal" xəbər verir ki, bu barədə qərarı AFFA-nın İntizam Komitəsi verib.

Belə addım atılmasına səbəb "Səbail-2" komandasının limiti pozmasıdır. Buna görə "Səbail-2"yə 0:3 hesablı texniki məğlubiyyət verilib. Komanda "Səbail-2" 400 manat cərimə edilib.

Qeyd edək ki, "Zirə-2" bu matçda 3:0 hesabı ilə qalib gəlmişdi.

# Qarabağa 2:7 uduzan "Ludoqorets"in baş məşqçisi istefaya göndərildi

***"Ludoqorets" baş məşqçisi Georgi Dermendcievlə yolları nı ayırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Bolqarıstan mətbuatı məlumat yayıb.

Məlumatda mütəxəssisin "Qarabağ"a Çempionlar Liqasında 2:7 hesablı məğlubiyyətdən sonra istefaya göndərildiyi bildirilib.

"Ludoqorets"ə müvəqqəti Zahari Sirakov rəhbərlik edəcək.

# "Trabzonspor" Avstriyada cavab oyununa çıxır

***Türkiyənin "Trabzonspor" komandası bu gün Avropa Liqasının III təsnifat mərhələsində cavab oyununa çıxacaq.***

"Unikal" xəbər verir ki, "bordo-mavililər" Alyanz Stadionunda Avstriyanın "Rapid" (Vyana) klubunun qonağı olacaq. Görüş Bakı vaxtı ilə saat 20:00-da start götürəcək.

Komandalar arasında ilk görüş rəqibin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, "Trabzonspor" bu raundu keçərsə, pley-off mərhələsində "Braqa" (Portuqaliya) - "Servett" (İsveçrə) cütünün qalibi ilə qarşılaşacaq.

# Lamin Yamalın atası bıçaqlandı

***İspaniyada Lamin Yamalın atası Munir Nəsraui avtomobil dayanacağında bıçaqlanıb.***



"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, kişi ağır vəziyyətdə xəstəxanaya çatdırılıb.

Polis artıq bir neçə şübhəli şəxsi müəyyənləşdirib, hadisənin baş vermə şəraitini araşdırır və şahidləri dindirir.

# "Hədəfimiz Superliqaya yüksəlməkdir" - Renat Dadaşov

***Azərbaycan millisinin "Ankaragücü"də (Türkiyə) çıxış edən futbolçusu Renat Dadaşov klubu haqqında danışıb.***

QOL.az xəbər verir ki, avqustun 8-də 1-ci liqa təmsilçisi ilə 2 illik müqavilə imzalayan və ilk matçında fərqlənən 25 yaşlı hücumçu bu sözləri deyib: "Baş məşqçi Cihat Arslanın mənə qarşı diqqəti məni təsirləndirdi. O, "Ankaragücü"nün qarşıdakı planlarından danışdı. Öz planlarını dedi. Bunlar məni çox təsirləndirdi. "Ankaragücü" böyük bir klubdur. Ankara gözəl şəhərdir. Hədəfimiz yenidən Superliqaya yüksəlməkdir. Mən də, komanda yoldaşlarım da bunun üçün mübarizə aparacağıq. "Şanlıurfaspor"la ilk turun matçında (2:0) qol vurmaq mənə ruh yüksəliyi verdi. Bütün diqqətimizi "Ərzurumspor"a qarşı növbəti görüşə yönəldəcəyik. Bu oyunda da qalib gəlmək üçün əlimizdən gələni edəcəyik".